Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

12 SENTYABR 2019-cu il

№ 161 (4059)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PUTİNDƏN PAŞİNYANA İKİNCİ ZƏRBƏ VƏ TƏHQİRAMİZ CAVAB - «KÖÇƏRYANLA HƏBSDƏ GÖRÜŞSƏ, EHTİYATLI OLSUN Kİ, ARXASINCA QAPINI BAĞLAMASINLAR...»

səh. 7

Fransanın ermənipərəst üzü yenidən göründü - bir qrup deputat erməni pulları ilə Qarabağda...

səh. 6

Lavrovun "hamının-hamıya" prinsipi Ukrayna-Rusiya münasibətlərində işlədi, Azərbaycan-Ermənistan üçün işləmədi

səh. 3

Ermənistanda rusofob dairələrin Putinə "1 mart qəsdi"...

səh. 4

Bolton getdi - ermənilər ABŞ-ın Ermənistana sərt ritorikasının dəyişəcəyi eyforiyasında...

səh. 6

Beynəlxalq maliyyə institutlarının manat istiqrazlarına diqqəti artır

səh. 10

Uşağı evdə bağlı qapı arxasında qoyub getmək - Bakıda yeni problem...

səh. 11

Aşura günü ziyarətgahlara gətirilən əşya və ərzaqların sonrakı taleyi...

səh. 15

Tortla "Allah rəhmət eləsin!" - əcaibləşən adətlərimiz...

səh. 13



səh. 8-9

## Daxili siyasətə xarici müdaxilələrə qarşı geniş siyasi dialoq başladı - tək AXCP və Müsavatdan başqa...

*Əliyev iqtidarının təşəbbüsünə müxalifətdən nikbin reaksiyalar var, ölkə ümumi siyasi barışıq ovqatında...*





Qondarma «DQR»də «seçki»dən sonra həmsədrlərdən əcaib bəyanat - «əhali» nə deməkdir...

səh. 3

Amulsar Paşinyan hakimiyyətini çarəsiz durumda buraxıb - partiyalar parçalanıb, cəmiyyət üzə durub, xarici investisiya tam kəsilmək durumunda...

səh. 9

Azərbaycanın gedişləri Ermənistanın 1 oktyabr sammitinə bəslədiyi ümidləri puça çıxarır...

səh. 5

səh. 2

Ceyhun Bayramov təhsildə yeni maraqlı dəyişikliklərin anonsunu verdi



səh. 4

Ziyalı ordusu radikal müxalifətdən niyə uzaq olmağa çalışır...



səh. 11

Özəl universitetlər üçün təhsil haqqı məsələsində güzəşt kateqoriyası yoxdur...



səh. 12

Atasız qızların təhsil haqqından azad olunması problemi...



səh. 14

Yazıçılar Birliyində vəziyyətlə bağlı daha bir müzakirə... - Dəyanət Osmanlı



## Əli Əhmədov "Azərbaycanda uşaqpulu verilmir" fikrinə etiraz etdi

**Azərbaycanda xeyli ailə ünvanlı sosial yardım alır. Bu yardımdan faydalanan ailələrin əksəriyyəti çoxuşaqlıdır. Bu mənada "ölkədə "uşaqpulu" verilmir" məntiqini qəbul etmirəm. "Trend"in məlumatına görə, bunu Yeni Azərbaycan Partiyasının sədr müavini - İcra katibi, Baş nazirin müavini Əli Əhmədov deyib.**

O qeyd edib ki, ünvanlı sosial yardım həm də çoxuşaqlı ailələr üçün nəzərdə tutulub: "Çoxuşaqlı ailələr həm də aztəminatlı ailə hesab olunur".

Ə.Əhmədov vurğulayıb ki, bu baxımdan "Azərbaycanda "uşaqpulu" verilmir" fikrini səsləndirmək doğru deyil: "Azərbaycan hökuməti çoxuşaqlı ailələri diqqətdən kənarda saxlamır. Siz bunu "uşaqpulu" formasında ifadə edirsinizsə, o zaman bu araşdırılmalıdır. Güman edirəm ki, bu məsələ araşdırıla və qərar qəbul oluna bilər. Bir daha qeyd edirəm ki, aztəminatlı ailələrin dövlətdən güzəştalma mexanizmi və forması mövcuddur".

## Bakı polisi yeni dərs ilinin başlaması ilə bağlı tədbirlərə başladı

*Bakı DYP ilk dərs günü ilə bağlı valideynlərə müraciət etdi*



**Bakı şəhər Baş Polis İdarəsi yeni dərs ilinin başlanması ilə əlaqədar təhlükəsizlik aylığına start verir.**

İdarənin mətbuat xidmətinin rəhbəri Elşad Hacıyev "Trend"ə açıqlamasında bildirib ki, Daxili İşlər Nazirliyinin rəhbərliyinin müvafiq göstərişinə əsasən, yeni dərs ilinin başlanması ilə əlaqədar sentyabr ayının 15-dən oktyabr ayının 15-dək "Diqqət, uşaqlar!" adı altında hərəkətin təhlükəsizliyi aylığı keçiriləcək: "Tədbirin keçirilməsinin əsas məqsədi uşaq və yeniyetmələrin iştirakı ilə yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində profilaktiki tədbirlərin gücləndirilməsi, habelə ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanması və tədris prosesinin effektliyinin yüksəldilməsinə dövlət yol polisinin köməyinin artırılmasıdır".

Bakı şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsi yeni tədris ilinin başlanması ilə bağlı valideynlərə müraciət edib. İdarənin Yol Hərəkətinin Təhlükəsizliyinin Təbliği və İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polis polkovniki Vaqif Əsədov "Trend"ə açıqlamasında valideynləri ilk dərs günü ilə bağlı diqqətli olmağa çağırıb:

"Yeni dərs ilinin başlaması ilə əlaqədar polis gücləndirilmiş iş rejimində xidmət edəcək. Təhsil müəssisələri, onlara bitişik küçə və yollar nəzarətə götürülməklə xidmət davam etdiriləcək. Hərəkətin sıxlığını nəzərə alaraq, valideynlər təhsil müəssisələrinə bitişik küçə və yollar üzrə hərəkət edərkən yolların hərəkət hissəsində dayanıb məktəbliləri düşürüb mindirilməsinə diqqət yetirsinlər. Niyə diqqət yetirsinlər? Bir istiqamətli iki hərəkət zolağı olan avtomobil yolunda təxminən 30 saniyə dayanmaq eyni istiqamət üzrə hərəkətdə olan 60-a yaxın nəqliyyat vasitəsinin sürücüsünün təxminən 7-10 dəqiqə ləngiməsi deməkdir. Ona görə də avtomobil sürücüləri və sahibləri təhsil müəssisələri istiqamətində hərəkət edərkən diqqətli olmalı və başqa hərəkət iştirakçılarını da düşünməlidir. Ən azından avtomobili olmayan və ictimai nəqliyyat vasitələri ilə hərəkət edən sərnişinlərin də məktəb istiqamətində və yaxud işə ləngiməmələri üçün bu tələblər mütləq yerinə yetirilməlidir".

# Prezident İlham Əliyev Rusiyanın Sverdlovsk vilayətinin qubernatorunu qəbul edib



**Prezidenti İlham Əliyev sentyabrın 11-də Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olunaraq, Azərbaycanın Rusiyanın ayrı-ayrı vilayətləri, o cümlədən Sverdlovsk vilayəti ilə əlaqələrinin genişlənməsinin məmnunluq doğurduğu bildirilib.

Söhbət zamanı Azərbaycanla Sverdlovsk vilayəti arasında ticarət dövriyyəsinin 85 faiz artması iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinin yaxşı göstəricisi kimi dəyərləndirilib, ticarət dövriyyəsinin daha da artırılması üçün lazımi potensialın mövcud olduğu vurğulanıb. Eyni zamanda, Bakıda keçiriləcək biznes forumun əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub. Son illər Rusiyadan Azərbaycana gələn turistlərin sayının durmadan artdığı vurğulanaraq, Sverdlovsk vilayəti ilə turizm sahəsində əlaqələrin inkişaf etdirilməsinin önəmi bildirilib.

Görüşdə əməkdaşlığın müxtəlif istiqamətləri, o cümlədən sənaye, maşınqayırma sahələrində birgə layihələrin həyata keçirilməsi, sərmayə qoyuluşu, mədəniyyət, təhsil sahələri ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edilib.

# Ceyhun Bayramov təhsildə yeni maraqlı dəyişikliklərin anonsunu verdi

*6 rayonun Təhsil Şöbəsinin rəhbərini vəzifəsindən kənarlaşdırıb*



**Müşahidələrimiz onu göstərir ki, bəzi hallarda qəbul edilən normativ qaydalar yerlərdə tam şəkildə icra edilmir. "Trend"in məlumatına görə, bunu Təhsil naziri Ceyhun Bayramov təhsil işçilərinin respublika konfransında çıxışı zamanı deyib.**

Onun sözlərinə görə, təhsil sistemində hər şeyin elektron qaydada aparılması neqativ halların sayını azaltsa da, il ərzində keçirilən nəzarət tədbirləri zamanı bir sıra neqativ halların hələ də mövcud olması öz təsdiqini tapıb.

C.Bayramov əlavə edib ki, bu il ərzində işlərinə yol verdikləri nöqsanlarına görə 6 rayon təhsil şöbəsinin rəhbəri vəzifəsindən kənarlaşdırılıb. Eyni zamanda, 10 nəfər rayon təhsil şöbəsinin rəhbəri və 3 nəfər ərazi maliyyə hesablaşma mərkəzinin rəhbəri barəsində işlərində verdiyi nöqsana görə intizam tədbirləri tədbiq edilib.

Bununla yanaşı, 8 nəfər məktəb direktoru, 6 nəfər direktor müavininin əmək müqaviləsinə xitam verilib, 29 nəfər direktor və 37 nəfər direktor müavini barəsində intizam tədbirləri tədbiq edilib.

C.Bayramov deyib ki, 80 nəfər məktəb direktorunun əmək müqavilələsinin uzadılmaması barədə qərar qəbul edilib. Buna səbəb onların nəticələrinin davamlı şəkildə aşağı olmasıdır: "7 hal üzrə materiallar toplanaraq hüquqi qiymət verilməsi üzrə aidiyyəti qurumlara göndərilib. Fikrimcə, bu məsələlərə ciddi yanaşmalıyıq. Bu nöqsanlara yol verən şəxslər öz cəzalarını alacaqlar".

"Bəzi məktəblərdə arxayınlıq var ki, şagirdlər əlavə hazırlıq hesabına imtahanlara müstəqil hazırlaşa bilərlər. Hesab edirik ki, artıq bu işdə köklü bir yanaşmanın və dəyişikliyin edilməsinin zamanı yetişib"- deyən nazirin sözlərinə görə, qarşıda duran vacib məsələlərdən biri bütün məktəblərdə tam orta təhsil səviyyəsində keyfiyyətli təhsilin təmin edilməsidir: "Ancaq apardığımız təhlillər zamanı fərqli mənzərə görürük. Əfsuslar olsun ki, elə təhsil müəssisələrimiz var ki, onlar bu işi lazımi səviyyədə təmin və təşkil edə bilmirlər. Bu, bir çox məqamlarla özünü təsdiq edir".

C.Bayramov qeyd edib ki, təhsil qanunvericiliyində edilmiş son dəyişikliklər bütün məktəblər üçün yüksək nəticələr əldə etmək imkanları yaradıb. Bu gün şagirdlərin meyl və maraqlarına uyğun təmayül siniflərinin yaradılması imkanları var: "Eyni zamanda, şagirdlərin təhsillərinin növbəti pilləsində seçdikləri ixtisasa uyğun olmayan fənlərin sayının azaldılması və ya keçirilməməsi, məhz şagirdlərin maraqlarına uyğun fənlərin keçirilməsi imkanları mövcuddur. Bir çox yerlərdə çətinliklər nəzərə alınaraq, təmayül siniflərinin yaradılması üçün 20 şagird deyil, 15 şagirdlə də formalaşdırılmasının qanunvericiliyə daxil edilməsi imkanları daha da genişləndirilir".

## Baş Prokurorluq Gəncədə oğurladığı qadını üç gün vəhşiliklə zorlamış Əlinin qətlinin əsl təfərrüatlarını yenidən açıqladı

**Baş Prokurorluğun Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, bəzi kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə Gəncə şəhər sakini Əli Əliyevin guya 22 nəfər tərəfindən döyülərək qətlə yetirilməsi barədə yayılmış məlumatlar həqiqətə uyğun deyil.**

Belə ki, 15 aprel 2015-ci il tarixdə Gəncə şəhər sakini Əli Əliyev qonşusu Sona Qəhrəmanini gecə saatlarında bıçaqla hədələyib həyətlərindən oğurlayaraq 3 gün ərzində saxlayıb dəfələrlə zorlayıb, zor tətbiq etməklə seksual xarakterli zorakılıq hərəkətləri edərək mobil telefonla videoçəkilişini aparıb.

18 aprel 2015-ci il tarixdə Sona Qəhrəmaninin qardaşı Yaqub Qəhrəmani və əmisi Əli Qəhrəmani Gəncə şəhəri ərazisində Əli Əliyevdən qisas almaq məqsədilə onu qətlə yetiriblər.

Gəncə Ağır Cinayətlər Məhkəməsinin 26 fevral 2016-ci il tarixli hökmünə əsasən Y.Qəhramani 17 il 6 ay, Ə.Qəhrəmani isə 17 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunub.

**Üzunmüddətli missiyaları nəticəsində heç bir uğura imza ata bilməyən ATƏT-in Minsk Qrupunun həmsədrləri daha çox bəyanatlar verməklə işlərini bitmiş sayırlar. Təəssüflər olsun ki, əksər vaxtlarda həmin bəyanatlar da məsuliyyətsiz formada hazırlanır və mahiyyət etibarilə həmsədrlərin missiyası ilə üst-üstə düşmür.**




# Qondarma "DQR"də "seçki"dən sonra həmsədrlərdən əcaib bəyanat - "əhali" nə deməkdir...

***Akif Nağı:** "Həmsədrlər, faktiki olaraq, Ermənistanın ortaya atdığı tezisləri öz adlarından müdafiə edirlər"*

Analoji məzmunlu bəyanatı həmsədrlər qondarma "DQR"də keçirilən "seçkilər"lə bağlı veriblər. ATƏT-in Minsk Qrupu həmsədrlərinin sentyabrın 8-də Dağlıq Qarabağda "yerli seçkilər"in keçirilməsi ilə əlaqədar yaydıqları bəyanatda olduqca zərərli fikirlər yer alıb. Sitat: "həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli həlli kontekstində Dağlıq Qarabağ əhalisinin öz gələcəyi barədə qərar qəbul etmək rolunu tanıyır". Yəni beynəlxalq vasitəçilər demək istəyirlər ki, ermənilərin özlərini necə idarə etmək istəyinə onlar normal yanaşırlar. Maraqlıdır ki, münaqişənin xüsusiyyətinə hamıdan yaxşı bələd olan həmsədrlərin bəyanatında bölgədə yaşamalı olan azərbaycanlılardan söhbət açılmır. Həmsədrlərin bəyanatında bu barədə bir kəlmə də yoxdur. Əslində, həmsədrlər məsələyə ədalətli yanaşsaydılar, heç olmasa, bir cümlə yazmalıydılar ki, "gələcəkdə iki icmanın birgə keçirəcəyi seçkilər bölgə əhalisinin tamamının maraqlarını təmin edəcək". Ancaq onlar bu ifadəni əhali sözü ilə əvəz ediblər. Aydındır ki, faktiki olaraq, hazırda Dağlıq Qarabağın ərazisində yaşayan əhali yalnız ermənilərdən ibarətdir. Həmsədrlərin bu bəyanatına ekspertlərin münasibəti necədir?

Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmsədrlər son bəyanatla yenidən öz məsuliyyətsizliklərini etiraf etmiş oldular: "Bu bəyanatla bir daha sübut etdilər ki, onlardan nəsə gözləməyin heç bir faydası yoxdur. Fakitiki olaraq, həmin həmsədrlər Ermənistanın ortaya atdığı tezisləri öz adlarından müdafiə edirlər. Ermənilər bu münaqişəni Dağlıq Qarabağ-Azərbaycan konflikti kimi təqdim etməyə çalışırlar, onlar, həmçinin, orada yalnız ermənilərdən ibarət əhalinin söz sahibi olduğunu bildirirlər. Buyurun, indi həmin tezisləri həmsədrlər yayırlar. Əslində, onlar "DQR"dəki "seçkilər"lə bağlı çox sərt mövqe ortaya qoymalıydılar. Deməliydilər ki, belə "seçkilər" danışıqlar prosesinə birmənalı mane olur. Onlar çox yumşaq şəkildə öz fikirlərini ifadə ediblər. Bəli, bəyanatda "Dağlıq Qarabağ əhalisinin öz gələcəyini müəyyənləşdirmək" kimi ifadələrin yer alması təsadüf sayıla bilməz. Faktiki olaraq, bununla Dağlıq Qarabağda yaşayan erməniləri oranın söz sahibi kimi təqdim edirlər. Bunu həmsədrlərin etməsi acınacaqlı vəziyyət yaradır. Onlar əhali deyəndə münaqişədən əvvəl orada yaşayan azərbaycanlıların və ermənilərin ümumi mövqeyindən danışa bilərlər. Hələ ki, danışıqlar prosesində həmin termin icmalar kimi ifadə edilir. Nədənsə, bəyanatda biz həmin fikrə rast gəlmədik. Dağlıq Qarabağdan çıxarılan azərbaycanlıların sayı 80 min nəfərdir. Ermənilərin sayı isə, onların öz dediklərinə görə, 140 min nəfərdir. Beynəlxalq müşahidəçilər isə bildirirlər ki, orada 50 mindən artıq erməni yaşamır. Qarabağ əhalisinin hüququndan danışılırsa, mütləq mənada 80 minlik azərbaycanlı icmasının hüquqları kənarda qalmamalıdır. Hətta bu rəqəmi 140-80 min nisbətində götürsək belə, hüquqların tanınması birtərəfli ifadə edilə bilməz. İndi elə bu bəyanatdan sonra həmsədrlərin yaxasından yapışmaq lazımdır ki, buyursunlar, 80 minlik azərbaycanlıların da mövqeyini ifadə etsinlər. Diplomatiyamız bu amili onların qarşısında xüsusilə qabartmalıdır. Bu bir daha həmsədrlərin fəaliyyətinin mənasız olduğunu göstərir. Artıq vəziyyət o həddə çatıb ki, onlar çəkinmədən, açıq şəkildə Dağlıq Qarabağdakı erməni əhalisinin müdafiəçisi kimi mövqe ortaya qoyurlar".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Azərbaycan tərəfinin girovların dəyişdirilməsi ilə bağlı təklif etdiyi "hamının-hamıya" prinsipi hələ də Ermənistan tərəfdən lazımi şəkildə dəyərləndirilməyib. Qeyd edək ki, bu il aprelin 30-da Rusiyanın xarici işlər naziri Sergey Lavrov rəsmi İrəvana müraciət edərək əsir və girovların "hamının-hamıya" prinsipi ilə dəyişdirilməsinə müsbət cavab verilməsini istəmişdi.**





# Lavrovun "hamının-hamıya" prinsipi Ukrayna-Rusiya münasibətlərində işlədi, Azərbaycan-Ermənistan üçün işləmədi

***Əhməd Şahidov:** "Biz çox istəyirik ki, bu proses mərhələli şəkildə deyil, tam bir proses olaraq yekunlaşsın"*

Bundan sonra iyunun 28-də ilk əsir və girovların dəyişdirilməsi prosesi baş tutdu. 16 mart 2019-cu il tarixdə Ermənistan hərbçiləri tərəfindən girov götürülmüş Azərbaycan Respublikasının vətəndaşı, Qazax rayonu, Yuxarı Salahlı kənd sakini, 29.10.1986-cı il təvəllüdlü İbrahimov Elvin Arif oğlu və 20 iyun 2017-ci il tarixdə Qazax rayonu ərazisində saxlanmış Ermənistan Respublikasının vətəndaşı, 06.11.1974-cü il təvəllüdlü Karapetyan Zaven Avanesoviç 28 iyun 2019-cu il tarixdə müvafiq olaraq tərəflərə təhvil veriliblər. Ancaq həmin vaxtdan sonra proses dayanıb.

Ötən həftə Rusiya və Ukrayna arasında əsirlərin dəyişdirilməsi mümkün olub. 35 nəfər ukraynalı əsirlə 35 nəfər rusiyalı əsir dəyişdirilib. Rusiyanın xarici işlər naziri Sergey Lavrov "2+2" formatında Rusiya və Fransa xarici işlər və müdafiə nazirlərinin görüşündən sonra keçirilən birgə mətbuat konfransında deyib ki, Rusiya və Ukrayna arasında "35-ə 35" formatında əsir və girovların mübadiləsi Donbasda problemin həllinə kömək edəcək.

Çox maraqlı mənzərə yaranır. Lavrovun təklif etdiyi variant Ukrayana ilə bağlı baş tutur, ancaq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yox. Ukraynadakı girovların dəyişdirilməsi də, demək olar ki, "hamının-hamıya" prinsipi ilə baş tutub. Həmin hadisə Azərbaycanla Ermənistan arasında girovların dəyişdirilməsinə stimul verə bilərmi?

Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru Əhməd Şahidov "Bakı-Xəbər"ə bildirdi ki, bu il aprelin 30-da Rusiyanın xarici işlər naziri Sergey Lavrov rəsmi İrəvana müraciət edərək əsir və girovların "hamının-hamıya" prinsipi ilə dəyişdirilməsinə müsbət cavab verilməsini istəmişdi: "Biz çox istəyirik ki, bu proses mərhələli şəkildə deyil, tam bir proses olaraq yekunlaşsın. Bilirsiniz ki, Mariya Zaxarova da bununla bağlı çağırış etdi. Həmin müraciət, birmənalı olaraq, Dilqəm Əsgərov və Şahbaz Quliyevi əhatə edir. Azərbaycan bu dəyişdirilmə prinsipinə çoxdan hazırdır.

Artıq söz rəsmi İrəvandadır. Ermənistan tərəfi Mariya Zaxarovanın bu çağırışına müsbət cavab verməlidir. Nəhayət ki, gözlənilən əsir və girovların dəyişdirilməsi prosesi baş tutmalıdır. Əsirlərin "hamının-hamıya" prinsipi ilə dəyişdirilməsi təklifi ilə Azərbaycan tərəfi çıxış edib. Bu təklifi Rusiya və digər həmsədr ölkələr də dəstəkləyirlər. Hələ ki, məsələyə Ermənistan tərəfi müsbət mövqe nümayiş etdirmir.

Ermənistan hakimiyyəti bu təklifə və Rusiyadan olan çağırışa müsbət münasibət ortaya qoysa, bu, Ermənistanın da xeyrinə olar. Çünki Ermənistanın daxilində bu məsələ ilə bağlı ciddi narazılıq var. Əsirlərin valideynləri və qohumları dəfələrlə kütləvi aksiya keçirib, yolu kəsiblər. Onlar prosesi bilirlər ki, Azərbaycan tərəfi övladlarını verməyə hazırdır. Belə vəziyyətdə Ermənistan rəhbərliyi onlara deməyə söz də tapa bilmir. Bu səbəbdən də düşünürəm ki, proses yaxın zamanlarda baş tuta bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Ziyalı ordusu radikal müxalifətdən niyə uzaq olmağa çalışır...

**Ziyalı işıq deməkdir, onun ziyasından, nurundan nəsillər yetişir, xalqa, cəmiyyətə yararlı vətəndaşlar olurlar. Bu gün Azərbaycan cəmiyyətində kifayət qədər ziyalı var ki, onlar öz bilik və bacarıqları, təcrübələri, cəmiyyətə, dövlətə, dövlətçiliyə yararlılıqları ilə diqqət mərkəzindədirlər.**





*Məhərrəm Zülfüqarlı: "Ziyalıların dəstəyini qazanmayan radikal qüvvələrin gələcəkdə hər hansı bir siyasi uğur qazanması absurd görünür"*

*Aydın Xan Əbilov: "Ziyalıların radikal müxalifətdən kənar gəzməsinin səbəbləri çoxdur, ziyalısız isə heç bir siyasi təsisat inkişaf edə bilməz"*

Cəmiyyətdə öz çəkisi, sanbalı ilə seçilən ziyalılar, sözün həqiqi mənasında, dövlətə, dövlətçiliyə bağlılıqları ilə seçilirlər. Maraqlıdır ki, ziyalı adlanan kəslər, bu mənəvi titulu daşıyanlar radikal müxalifətin yanında olmaq istəmirlər. Bəzi radikal müxalif qüvvələr dəfələrlə ziyalıların adlarından istifadə etməyə cəhd etsələr də, buna nail ola bilməyiblər. Çünki ölkənin ziyalı kəsimi müxalifətlə hər hansı bir dialoqa getmək, onunla yanaşı dayanmaq istəmir. Düzdür, bir vaxtlar bəzi ziyalıların radikal müxalifət qüvvələri ilə yanaşı dayandığının şahidi olmuşuq, lakin onlar da radikalların əsl məqsədinin nə olduğunu anladıqdan sonra onlardan uzaqlaşıblar. Onu da qeyd edək ki, ümumiyyətlə, bu gün radikal müxalif qüvvələr müəyyən canfəşanlıqlar etməklə ziyalıların diqqətini çəkmək istəyirlər, ancaq onların bu cəhdləri alınmır.

Ziyalıların dəstəyini qazanmadan, ziyalılarla birgə addımlamadan radikal müxalifətin uğur qazanmaq şansı nə qədərdir?

Tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, bu gün əsl ziyalılar radikal müxalifətin heç bir fikrini bölüşmür və onları dəstəkləmir. Ziyalı dəstəyini itirən radikal müxalifətin bu halda heç bir uğur qazanmaq şansının olmadığını deyən M.Zülfüqarlının sözlərinə görə, hətta ziyalılar radikal müxalifətçilərlə bir məclisdə, eyni tədbirdə belə görünmək istəmirlər. "Ziyalılar yüksək mədəniyyətə malik olan insanlardır. Onlar hər şeyə ideal yanaşırlar. Bu səbəbdən də aşağı səviyyəli çıxışları, irad və bəyanatları qəbul etmirlər. Ona görə də onlar müxtəlif tədbirlərdə, yığıncaqlarda belə əsassız fikirləri səsləndirən radikal müxalifət qüvvələrindən uzaq gəzirlər. Bir var ziyalı məclisi, bir də var açıq qapıdır, kim istəyir gəlir və istədiyini danışır, bu da özünə hörmət edən insanları qane etmir və onlarla eyni məclisdə olmaq istəmirlər. Ziyalıların dəstəyini qazanmayan radikal qüvvələrin gələcəkdə hər hansı bir siyasi uğur qazanması absurd görünür. Bilirsiniz, bəzən olub ki, hansısa bir tədbir keçirilib və o məclisə ziyalı dəvət edilibsə, həmin qüvvələr danışmaq üçün ziyalılara söz verməyib, yalnız özləri danışıblar. O qüvvələr hər şeyi hay-küylə etmək istəyirlər. Bilirsiniz ki, artıq XXI əsrdir, hay-küy zamanı deyil, savad, təcrübə zamanıdır. Vətənpərvərlik hissi insanın daxilindən gəlməlidir, bu, pafosla ifadə olunmamalıdır. Hay-küy edən insanların özündə isə səsləndirdikləri kriteriyaların heç biri yoxdur".

M.Zülfüqarlı hesab edir ki, cəmiyyət inkişaf etdikcə, qaragüruha yer olmayacaq, onlar inkişaf edə bilməyəcəklər.

Tanınmış yazıçı-kulturoloq Aydın Xan Əbilov da bildirdi ki, Azərbaycan ziyalılarının müxalifətdən uzaq durması onların uğursuzluqları ilə bağlıdır. A.X.Əbilovun sözlərinə görə, nəinki radikal müxalif qüvvələr, eləcə də biznes strukturlarının rəhbərləri də ziyalıları özlərinə cəlb edə bilmirlər. Bu gün Azərbaycan ziyalısının Prezidentin yanında olduğunu qeyd edən müsahibimizin sözlərinə görə, Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva, sözün həqiqi mənasında, ziyalılara dəstək və dəyər verirlər. "Ölkə başçısı İlham Əliyev və respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyeva tez-tez elm, təhsil, mədəniyyət, eləcə də digər sahələrin təmsilçiləri ilə görüşür, onlarla müzakirələr, fikir mübadilələri aparırlar. Amma radikal müxalifətin isə ziyalılardan ziyanlı məqsədlər üçün istifadə etməsi cəhdləri cəmiyyətin gözündən yayınmır. Fikir verin, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, elminin, təhsilinin, kreativ düşüncəsinin gənc və yaşlı tanınmış nümayəndələrinin hansı radikal müxalifəti dəstəkləyir, yaxud onun yanındadır? Tanınmış ziyalıların heç biri radikal müxalifətin yanında deyil. Tək-tük ziyalılar var idi ki, radikal müxalifət onların nüfuzundan istifadə etdikdən sonra, bir növ, onları atmış oldu.

Götürək elə Rüstəm İbrahimbəyov kimi görkəmli yazıçı-dramaturq, kinorejissoru, görün onun aqibəti necə oldu. Yaxud yadınızdadırsa, radikal müxalifətin "Ziyalılar forumu" adlı bir təsisatı vardı. Məhz o forumun işinə baxanda görürsən ki, Əkrəm Əylisli kimi görkəmli bir yazıçı onların təsir altında öz xalqını pisləyən əsər müəllifi kimi tarixə düşdü. Radikal müxalifətin ən böyük problemi ziyalılara qiymət verə bilməməsidir. Ziyalıların radikal müxalifətdən kənar gəzməsinin səbəbləri çoxdur, ziyalısız isə heç bir siyasi təsisat inkişaf edə bilməz" - deyə A.X.Əbilov vurğuladı.

*İradə SARIYEVA*

# Ermənistanda rusofob dairələrin Putinə "1 mart qəsdi"...

**"İşıqlı Ermənistan" partiyasının parlament fraksiyasının üzvü Armen Babacanyan araşdırma aparıb və belə qənaətə gəlib ki, Ermənistanın başına gələn bütün bəlalarda günahkar Rusiya Prezidenti Vladimir Putindir.**



*Məhəmməd Əsədullazadə: "Ermənistanda Putinə qarşı həbs məsələsinin qaldırılması əsasən Köçəryan işində Kremlə qarşı demarşdır"*

Erməni deputatın araşdırmasından belə çıxır ki, Vladimir Putinə qarşı Ermənistanda mütləq cinayət işi açılmalıdır: "Moskvanın nəyə görə "1 mart" məsələsində bu qədər maraqlı olmasını anlamaq yaxşı olardı".

Erməni mətbuatı yazır ki, deputat ABŞ-ın Ermənistandakı səfiri ilə məsləhətləşmələr aparacaq, səfir isə Nikol Paşinyana Baş Prokurorluğun Vladimir Putinə qarşı cinayət işi açması və onu məsuliyyətə cəlb etməsi üçün göstəriş verməsini tapşıracaq: "Ermənistanda dəlilik epidemiyası təhlükəsi var. Bu gün artıq bütün simptomlar mövcuddur. Konstitusiya Məhkəməsinin qərarı necə gəldi şərh olunur: nazir Köçəryanın azad edilməsinə qərar vermədiyini bildirir, digərləri isə məhkəmənin legitim olmadığını iddia edir. Vladimir Putinə Ermənistanda müttəhim statusu verilməsi xoşagəlməz olardı. Yeni Ermənistan artıq hər şeyin baş verməsinin mümkün olduğu ABŞ-Soros koloniyasıdır".

Bütün bunlar Rusiya ilə Ermənistan arasında mövcud olan gərgin münasibətlərdən xəbər verir, gör vəziyyət nə yerə gəlib çatıb ki, Paşinyanın "Mənim addımım" bloku ilə birlikdə parlamentdə yer tutmuş "İşıqlı Ermənistan" partiyasının üzvü Putini məhkəmə ilə "təhdid" edir.

*"Artıq görürük ki, Paşinyan populizmlə məşğul olur, praqmatik siyasətdən uzaqdır"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Ermənistanda Putinə qarşı həbs məsələsinin qaldırılması əsasən Köçəryan işində Kremlə qarşı demarşdır: "Paşinyan yaxşı bilir ki, Putin onu qəbul etmir və əlverişli situasiyada "Qarabağ klanı"nı qabağa verib onu devirməyə cəhd edəcək. Moskvanın məhz Köçəryana stavka etməsi Paşinyana ciddi şəkildə təzyiq edilməsi deməkdir. Paşinyanın təlimatı ilə Putinə qarşı belə bir ssenari hazırlanıb. Paşinyan çalışır ki, Kreml ona Köçəryanla bağlı təzyiq etməsin. Ancaq bununla o öz iqtidarını daha da Kremlin hədəfinə gətirdi.

Artıq görürük ki, Paşinyan populizmlə məşğul olur, praqmatik siyasətdən uzaqdır. Rusiya-Ermənistan əlaqələri Paşinyan dövründə yüksək səviyyədə olmayacaq. Göründüyü kimi, iki ölkə arasında baş verən siyasi qarşıdurmanın dərinləşəcəyi gözlənir. Bütün bunlar da Paşinyan üçün müsbət siyasi gələcək vəd etmir.

**Çünki Ermənistana Kremlin birbaşa təzyiqləri artır. Moskva çalışacaq ki, Paşinyanı devirsin. Buna görə də Ermənistanda bundan sonrakı siyasi vəziyyət gərgin olaraq qalacaq".**

*Vidadi ORDAHALLI*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın gedişləri Ermənistanın 1 oktyabr sammitinə bəslədiyi ümidləri puça çıxarır...

**Azərbaycan ərazilərinin hələ də işğal altında saxlanması Ermənistana getdikcə daha baha başa gələrək, bu ölkənin sosial-iqtisadi tənəzzülünün daha dinamik xarakter alması ilə müşayiət edilməkdədir. Ermənistanda gözlənirdi ki, ölkədə son hakimiyyət dəyişikliyindən sonra iqtisadi müstəvidə problemlər həllini tapacaq, əhalinin soail rifah halı yaxşılaşacaq.**

Ancıq ötən il yarım bir daha təsdiqlədi ki, Ermənistan regional layihələrə qoşulmadan, Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmadan hansısa iqtisadi nailiyyət əldə edə bilməz.

İndi Nikol Paşinyan iqtidarı da yaxşı anlayır ki, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmadan, digər region ölkələri ilə normal münasibətlər qurulmadan Ermənistanda hansısa inkişafdan danışmaq sadəcə cəfəngiyatdır. Məsələnin maraqlı tərəflərindən biri isə budur ki, Azərbaycanın uğurlu gedişləri sayəsində İrəvanın regionda həyata keçirmək istədiyi transmilli layihələr də iflasa uğrayır. Belə bir vaxtda yayılan məlumata əsasən, Ermənistan oktyabrın 1-də İrəvanda keçiriləcək Avrasiya İqtisadi Birliyinin sammitində iştirak edəcək İran prezidenti Həsən Ruhaniyə böyük ümidlər bəsləyir. Burada erməni tərəfinin əsas gözləntiləri İranla birlikdə regional layihələr həyata keçirməkdir. Söhbət Ermənistan hökumətinin maliyyə imkanları üçün fantastik məbləğ təşkil edən 3,2 milyard dollarlıq dəmir yolu xəttinin tikintisindən gedir.

Xatırladaq ki, Ermənistan hökuməti bu mövzu ətrafında İran rəsmiləri ilə dəfələrlə müzakirələr aparıb. Erməni şərqşünası Vardan Voskanyan bildirib ki, Türkiyə və Azərbaycandan yan keçməklə çəkilməsi nəzərdə tutulan bu nəqliyyat xətti üzrə proqram hələ 2014-cü ildə qəbul olunub. İndi ermənilər üçün xəyal olan həmin layihənin "dirilməsi" məqsədilə yenidən İran prezidentinə müraciət edilməsi gözlənir. Ermənistanda bir sıra rəsmilər iddia edir ki, dəmir yolu çəkilərsə, İran bu dəmir yolu ilə Qara dənizə və oradan da Çinə daha asan çıxış əldə edə bilər. Lakin bunun əslində absurd olmasını etiraf edən ermənilərin də sayı az deyil. Məsələn, "armtimes.com" saytı yazır ki, Azərbaycanın həyata keçirdiyi layihələr, o cümlədən "Şimal-Cənub" dəhlizi, eləcə də Bakı-Tiflis-Qars dəmir yolu xətti Ermənistanın İran ümidlərinin üzərindən birdəfəlik xətt çəkib. Sayt qeyd edir ki, Ermənistandan fərqli olaraq, Azərbaycan ideyasını irəli sürdüyü transmilli layihələri həyata keçirir və bunun üçün çoxsaylı tərəfdaş da cəlb edə bilir: "Yaxın tarixə nəzər salanda görmək olar ki, Ermənistanın sabiq prezidenti Serj Sarkisyan hələ 2008-ci ildə İran-Ermənistan dəmir yolunun çəkilməsi ideyasini irəli sürüb və rəsmi Tehranla müzakirələr aparıb. Amma sonradan Sarkisyanın fikirləri sabun köpüyü kimi havadan asılı qaldı. Belə ki, Ermənistan prezidentinin təklifinə İran ciddi yanaşmadı və heç bir dövlət və beynəlxalq maliyyə təşkilatı İran-Ermənistan dəmir yolunun çəkilişinə sərmayə qoymaq istəmədi. Əvəzində Azərbaycan, Gürcüstan və Türkiyə öz səyləri ilə Bakı-Tiflis-Qarsı tikib başa çatdırdılar. Qlobal xarakter daşıyan Bakı-Tiflis-Qars istismara verildi. Özü də bütün dünya Bakı-Tiflis-Qarsın istismara verilməsini alqışladı. Bakı-Tiflis-Qars reallaşan müddətdə Ermənistan Tiflis-Gümrü-Qars dəmir yolu xəttinin yenidən işə salınması ideyasını irəli sürürdü. Ermənistan bu xətti işə salmaqla blokadadan çıxmaq istəyirdi. Lakin Azərbaycanın mövqeyi və Dağlıq Qarabağ münaqişəsinin həllini tapmaması həm İrəvanın bu niyyətinin üzərindən xətt çəkdi. Əvəzində Azərbaycan İranı, Rusiyanı yaxından özünə cəlb edən layihələrin işə salınmasında daha da irəliyə getdi".

Xatırladaq ki, absurd layihələrin ideyasını irəli sürən Ermənistan hələ bir neçə il əvvəl dəyəri 1,5 milyard dollar olan İran-Ermənistan avtomobil yolunun çəkilməsinə start verildiyini də bəyan edib. Lakin böhran yaşayan Ermənistan maliyyə çətinliyi ucbatından tikinti işlərini dəfələrlə dayandırıb. İran isə bu vəziyyətdə əsas prioriteti ərazisindən Azərbaycana uzanan dəmir yoluna yönəldib. Hazırda bu fonda İran "Şimal-Cənub" dəhlizinə xüsusi önəm verir. Elə bu günlərdə İranın dövlət dəmir yolu şirkətinin baş direktoru Səid Rəsuli bu dəhlizin ölkəsi üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayaraq, burada Azərbaycanın rolunu kifayət qədər yüksək qiymətləndirdiklərini də etiraf edib. Onun sözlərinə görə, hazırda Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun Gilan vilayətindən keçən hissəsində relslərin düzülməsi davam edir. Rəsuli nəzərə çatdırıb ki, yolun tikintisində Azərbaycan tərəfi də iştirak edir: "Rəsmi Bakı "Şimal-Cənub" dəhlizinin əsas tərkib hissəsi olan Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun inşasına 500 milyon dollar vəsait ayırıb. Bundan başqa, Azərbaycan İranın Astara şəhərində dəmir yolu vağzalının və yük terminalının tikintisində də iştirak edir". Rəsuli vurğulayır ki, İranla Azərbaycanın dəmir yolları arasında faydalı əməkdaşlıq əlaqələri mövcuddur: "Azərbaycan "Şimal-Cənub" dəhlizinin də tam olaraq formalaşmasında fəallıq göstərir. Məhz İranla Azərbaycanın dəmir yolu sahəsində əməkdaşlığı nəticəsində Asiya ilə Avropa dəmir yolu nəqliyyatı baxımından birləşəcək. Asiya ölkələri Avropaya, Avropa ölkələri isə Fars körfəzi sahillərinə və Cənub Şərqi Asiyaya çıxış əldə edəcək".

Göründüyü kimi, Azərbaycanın həyata keçirdiyi layihələr İran üçün Ermənistanı arxa plana atır. Bu mənada, Avrasiya İqtisadi Birliyinin sammitində iştirak edəcək İran prezidenti Həsən Ruhaniyə erməni rəsmilərinin yeni dəmir yolu xəttinin tikintisi barədə təklifinin sözdən o tərəfə keçməyəcəyi də heç bir şübhə doğurmur. Əslində, İran-Çin-Ermənistan formatında layihə həyata keçirilməsi xəyalında olan ermənilər özləri də etiraf edirlər ki, iranlı tacirlərin Uzaq Şərqə çıxış üçün istifadə edəcəkləri çoxlu sayda nəqliyyat dəhlizləri mövcuddur. Onlardan ən əlverişli olanlar isə məhz Azərbaycandan keçir və İran da bu istiqamətdə ölkəmizlə sıx əməkdaşlıq edir. Erməni ekspertləri bildirirlər ki, həmin bahalı layihə bir yana dursun, hökumət heç Ermənistanla İran arasında üçüncü yüksəkgərginlikli elektrikötürücü xəttinin tikintisi və bu ölkəyə İran qazının tədarükünün artırılması məsələlərini belə həll edə bilmir. Əsas səbəb yenə də maliyyə çatışmazlığıdır. Həm də nəzərə alınmalıdır ki, müstəqil olmayan və Rusiyanın müvafiq qurumu tərəfindən idarə edilən Ermənistan dəmir yolu idarəsinə sərmayəçi tapmaq o qədər də asan deyil. Politoloq Vigen Akopyan da bildirir ki, Ermənistan rəhbərliyi ictimaiyyətin diqqətini ölkədəki ciddi sosial-iqtisadi problemlərdən yayındırmaq üçün artıq effektiv olmayan üsullardan istifadə edir, yenə icrası mümkün olmayan fantastik layihələr haqda danışır: "Hakimiyyət informasiya və siyasət gündəmini yeni mövzularla doldurmağa cəhd edir. Bu, siyasət, iqtisadiyyat və idmanla bağlı məsələlərdir. Məsələn, Paşinyan Ermənistan-İtaliya futbol matçı zamanı "Facebook"da xüsusi bölmə də yaradıb. Halbuki, ölkədə Amulsar mədəni, İstanbul Konvensiyası, Qarabağ münaqişəsində mövqeyimiz və Xankəndi ilə münasibətlər kimi ciddi və hökumət tərəfindən həllini gözləyən problemlər mövcuddur. Məhz bu səbəbdən onlar diqqəti yayındırmaq məqsədilə müxtəlif texnologiyalardan istifadə edirlər. İranla dəmir yolu xəttinin yenidən gündəmə gətirilməsi də bunlardan biridir. Lakin 11 ildir bu barədə danışılsa da, ortada heç nə yoxdur və olmayacaq da. Çünki regionda "Şimal-Cənub" dəhlizinin reallaşması yeni dəmir yolunun tikintisi üçün İranı heç bir cəhətdən cəzb etmir". Onun sözlərinə görə, 2019-cu ilin aprel-mayından bəri "inqilab" hay-küyü yatışıb və insanlar artıq öz həyat səviyyələri, ölkənin sosial-iqtisadi vəziyyəti, məişət problemləri ilə maraqlanır, bütün bu problemlərin konkret həllini tələb edirlər. Erməni politoloq əlavə edib ki, bu səbəbdən, fantastik ideyalar irəli sürməkdənsə, hökumətin real iş görməsi daha yaxşı olardı.

Azərbaycanın iştirakı ilə bir-birinin ardınca işə düşən transmilli layihələr isə qarşıdakı dövr ərzində Ermənistanın izolyasiyasını daha da gücləndirəcək. Bundan əvvəl Bakı-Tiflis-Ceyhan neft kəməri, Bakı-Tİflis-Ərzurum qaz kəməri, eləcə də "Cənub Qaz Dəhlizi", TANAP və TAP kimi layihələrdən özünü məhrum edən Ermənistan "Şimal-Cənub" kimi mühüm beynəlxalq dəhlizdən də yararlana bilməyəcək. Səbəbi də aydındır. Ermənistan nə qədər ki, Azərbaycan torpaqlarının işğalını davam etdirəcək, regionda bütün beynəlxalq layihələrdən kənarda qalacaq. Buna regionda bütün mühüm layihələrin müəllifi və təşəbbüskarı olan Azərbaycan icazə verməyəcək. Təcrübə də göstərir ki, heç bir ölkə də Azərbaycandan icazəsiz Ermənistanı hansısa irimiqyaslı layihələrə qoşa bilməz. Bura İran da daxildir. Ermənstanın sabiq prezidenti Serj Sarkisyanın kürəkəni, ölkənin Vatikandakı keçmiş səfiri Mixail Minasyan bildirir ki, məhz belə vəziyyətdə Ermənistan qaçılmaz fəlakətə doğru yuvarlanır: "Ermənistanda inqilab deyil, müəyyən dəyişiklik baş verib və yeni hakimiyyət köhnənin davamıdır. Dəyişikliklər havada baş verib. Ölkəni bədbəxtliklər gözləyir". Bütün bunlardan xilas olmağın yeganə yolu isə Ermənistanın işğal siyasətinə son qoyması və region ölkələri, xüsusən də Azərbaycanla normal münasibətlər qurmasından keçir. Əks təqdirdə Ermənistanın məhvə doğru sürüklənməsi davam edəcək və bu hal işğalçı ölkədə mövcud hakimiyyətin sonunu da sürətlə yaxınlaşdıracaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Fransanın ermənipərəst üzü yenidən göründü - bir qrup deputat erməni pulları ilə Qarabağda...

**Fransa parlamentarilərindən ibarət nümayəndə heyəti sentyabrın 10-da Ermənistanın işğalı altında olan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfər edib. Fransız parlamentariləri Xankəndinin girişində qondarma separatçı rejimin qanunsuz və saxta "parlamenti"nin "sədr müavini" Vaqram Balayan qarşılayıb.**



## *Ramil Hüseynov: "Həmsədrlik institutunda təmsil olunan ölkə bu kimi məsələlərə diqqət etməlidir"*

Səfər çərçivəsində işğal olunmuş Azərbaycan ərazilərində yaradılmış separatçı rejimin nümayəndələri ilə görüşlərə start verilib. Fransa parlamentinin deputatı Gay Tessier Xankəndidə Qarabağdakı separatçıların nümayəndəsi Aşot Qulyanla görüşüb.

Görüşdən sonra tərəflər Xankəndidə Qarabağ və Fransa şəhərləri arasında əməkdaşlığa dair qoyulmuş "dostluq lövhəsi"nin açılışında iştirak ediblər.

Bu, Fransa qanunverici orqanının deputatlarının Azərbaycan tərəfinin razılığı olmadan işğal olunmuş Azərbaycan ərazilərinə ilk qanunsuz səfəri deyil. Bir sıra fransalı deputatlar Azərbaycan Xarici İşlər Nazirliyinin "arzuolunmaz şəxslər" siyahısına daxil ediliblər. Görünən odur ki, Fransadakı erməni lobbisi öz maliyyə imkanlarından istifadə edərək, yenidən bir neçə parlament üzvünü öz oyunlarına alət etməyə başlayıb. Bu da narahatlıq doğurmaya bilməz. Ən azından ona görə ki, Fransa ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biridir.

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, Dağlıq Qarabağ ərazisinə bu cür qanunsuz səfərlər Azərbaycan-Fransa münasibətlərinin bugünkü perspektivlərinə kölgə salır: "Nəzərə almaq lazımdır ki, son illər Azərbaycan-Fransa əlaqələri xeyli inkişaf edib. Siyasi əlaqələrlə yanaşı, iqtisadi əlaqələr də inkişaf edir. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi artır. Fransa şirkətləri Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə maraq göstərirlər. Ən başlıcası isə, Fransa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi funksiyasını üzərinə götürən ATƏT-in Minsk Qrupunun 3 həmsədr dövlətindən biridir. Həmsədrlik institutunda təmsil olunan ölkə bu kimi məsələlərə diqqət etməlidir. Düzdür, hansısa deputatın Qarabağa səfəri rəsmi Parisin mövqeyi demək deyil. Ancaq, hər halda, belə hallar yolverilməzdir. Bütün bunlar, nəticə etibarilə, Fransanın həmsədr kimi qərəzsiz, obyektiv mövqeyinə çox böyük kölgə salır. Heç şübhəsiz ki, bu addım beynəlxalq hüquq normalarının prinsiplərinə, eləcə də Fransa qanunvericiliyinin tələblərinə ziddir.

*"Fransadan buna görə izahat tələb edilməlidir"*

Parlamentarilərin separatçı rejimə belə qanunsuz səfərləri Fransanın müəyyən etdiyi davranış tələbləri ilə ziddiyyət təşkil edir. Hesab edirəm ki, bununla əlaqədar Fransaya nota verilməlidir. Eyni zamanda, Fransadan buna görə izahat tələb edilməlidir".

***Vidadi ORDAHALLI***

# Bolton getdi - ermənilər ABŞ-ın Ermənistana sərt ritorikasının dəyişəcəyi eyforiyasında...

**Prezident Donald Tramp xidmətlərinin artıq lazım olmadığını söyləyərək, milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonu vəzifəsindən azad edib. ABŞ Prezidenti deyib: "Mən dünən axşam Con Boltona xidmətlərinin artıq Ağ Evdə lazım olmadığını bildirdim.**



## *Əhəd Məmmədli: "ABŞ xarici siyasətinin hazırkı prioritetində Ermənistanla yaxın münasibət qurmaq durmur"*

Mən onun bir çox məsləhəti ilə razılaşmırdım, həmçinin, administrasiyadakı bir sıra şəxslər kimi. Buna görə Condan istefasını istədim və o da bu səhər istefasını verdi".

Tramp Con Boltona xidmətlərinə görə təşəkkür edib.

Con Bolton Trampın açıqlamasından sonra, "Tvitter" səhifəsində istefa təklifini ilk olaraq Trampa təqdim etdiyini, Trampın isə bu məsələ ilə bağlı "sabab danışarıq" cavabını verdiyini bildirib.

Qeyd edək ki, Bolton Dağlıq Qarabağ konfliktilə yaxından tanış olan məmurlardan sayılırdı. O, Qafqaz turu çərçivəsində həm Ermənistan, həm də Azərbaycanda olmuşdu. Boltonun Ermənistanla bağlı sərt mövqeyə malik olduğu bildirilirdi. Təsadüfi deyil ki, Bolton məhz Ermənistanda olan zaman həmin ölkənin siyasətini sərt tənqid atəşinə tutdu. Yəqin buna görədir ki, Boltonun vəzifəsi ilə vidalaşmasına daha çox ermənilər sevinirlər. Onlar belə bir eyforiyaya qapılırlar ki, Boltondan sonra ABŞ-la Paşinyan hökuməti arasındakı münasibətlər normallaşa bilər. Hazırda bu münasibətlər çox gərgindir. Təsadüfi deyil ki, Paşinyan hətta ölkəsinin ABŞ-da akkreditə olunan səfirini rəsmi Vaşinqtonla münasibətləri normal məcraya sala bilmədiyinə görə tənqid etmişdi. Bu mənada maraqlıdır, Boltonun istefası ermənilərin ümidlərini doğrulda bilərmi?

Politoloq Əhəd Məmmədli "Bakı-Xəbər"ə bildirdi ki, Trampın bu addımları doğrudan da maraqlı görünür: "Tramp öz administrasiyasındakı məmurları tez-tez vəzifəyə təyin edib, sonra istefaya göndərən prezident kimi adını ABŞ siyasətinə yazmış olacaq. Ola bilsin ki, həmin təyinatların heç də hamısı Trampın şəxsi istəyi ilə olmur. Çünki ABŞ-ı yönətən sistemin belə müdaxilələri ola bilər. Buna görə də Tramp həmin məmurlara çox da etibar etmir. Bunlar ABŞ-ın dərin siyasətinə aid olan məsələlərdir. O ki, qaldı ermənilərin Boltonun istefası ilə bağlı sevinmələrinə, burada da əsaslar görürəm. Bildiyiniz kimi, Paşinyanın ABŞ-la bağlı siyasəti tam iflasa uğrayıb. Çünki Paşinyan iki stula eyni vaxtda oturmaq istədi, ancaq bu alınmadı. Əsasən də Suriyaya erməni hərbçilərini göndərməklə bağlı qəbul edilən qərardan sonra ABŞ-ın inamı tam itdi. Ermənistanın xarici işlər nazirinə mesaj verildi ki, həmin hərbçilər Suriyadan çıxarılsın. Tonoyan isə açıq şəkildə buna etiraz etdi. Paşinyan çox çalışır ki, Tramp onunla görüşsün. Ancaq bunu alındıra bilmir. Bu yaxınlarda onun ABŞ-a səfəri reallaşacaq. Amma həmin səfərin qrafikində də Trampla görüş nəzərdə tutulmur. Çünki Tramp hələ ki, belə bir razılığı verməyib. Bəlkə də Ermənistan müstəqilliyini bərpa edəndən sonra bu qədər məsafədə ABŞ-dan uzaq düşməmişdi. Boltonun istefası bu səbəbdən ermənilərdə bir ümid çırağı yandırıb. Ancaq bilməlidirlər ki, ABŞ kimi ölkələrdə bu tip məsələləri şəxslər həll edə bilmir. Hətta Prezident belə bunu edə bilmir. Belə işləri sistem yoluna qoyur. ABŞ xarici siyasətinin hazırkı prioritetində Ermənistanla yaxın münasibət qurmaq hələ ki, durmur. Çünki Ermənistanın yeni hakimiyyəti istər Rusiya, istərsə də İranla bağlı ABŞ-ın tələblərini yerinə yetirməyib. Xüsusilə də Suriya məsələsində onların ABŞ-ı eşitməməsi Vaşinqtonun maraqları ilə uzalaşmır. Boltonun yerinə kimin gələcəyindən asılı olmayaraq, Ermənistan-ABŞ münasibətlərində müsbətə doğru tərpəniş gözləməyə dəyməz. Bu o demək deyil ki, Azərbaycan arxayın düşəməlidir. Bizim lobbimiz fəaliyyəti daha da gücləndirməlidir. Çalışmalıyıq ki, ABŞ-Ermənistan münasibətləri daha da gərginləşsin, əvvəlki səviyyəsinə gəlməsin".

*"Boltonun yerinə kimin gələcəyindən asılı olmayaraq, Ermənistan-ABŞ münasibətlərində müsbətə doğru tərpəniş gözləməyə dəyməz"*

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanın sabiq prezidenti Robert Köçəryan ətrafında baş verənlər və Rusiyanın buna münasibəti getdikcə daha maraqlı xarakter almağa başlayır. Belə görünür ki, yaxın tezlikdə Köçəryan amili Nikol Paşinyan iqtidarı üçün ciddi başağrısına çevriləcək.**

# Putindən Paşinyana ikinci zərbə və təhqiramiz cavab - "Köçəryanla həbsdə görüşsə, ehtiyatlı olsun ki, arxasınca qapını bağlamasınlar..."



İndilikdə sabiq prezidentin ətrafında yer alan qüvvələr ölkə daxilində çoxsaylı etiraz aksiyaları keçirməklə bu istiqamətdə Paşinyana təsir göstərəmyə çalışır. Erməni mediası yazır ki, Köçəryan artıq tərəfdaşlarını yenidən hakimiyyətə qarşı səfərbər edir.

Xatırladaq ki, Köçəryan məsələsi Ermənistan hakimiyyəti daxilində də ciddi ziddiyyətə səbəb olub. Belə ki, Ermənistanda Konstitusiya Məhkəməsi keçmiş prezidentin həbsinin qanunsuz olduğu barədə hökm verib. Bundan sonra onun vəkilləri Köçəryanın dərhal azad olunmalı olduğunu bildiriblər. Konstitusiya Məhkəməsinin qərarında bildirilir ki, Köçəryana qarşı cinayət işinin açılmasına əsas götürülmüş hərəkətlər onun prezident kimi səlahiyyətlərinin tələbindən doğurdu. Amma Ermənistanın Baş Prokurorluğu bu qərara qarşı çıxır. Qurum bəyan edib ki, Konstitusiya Məhkəməsinin qərarı keçmiş prezidentə qarşı cinayət işinə xitam verilməsi üçün əsas sayıla bilməz. Ermənistan Baş Prokurorluğu onu da bildirib ki, eksprezidentin hərəkətlərinin qanuna uyğunluğu məsələsini yalnız müstəntiqlər və prokurorluq müəyyənləşdirə, məhkəmə isə qərar çıxara bilər. Baş Prokurorluq bildirib ki, Köçəryanın 2008-ci ilin martında yol verdiyi hərəkət onun prezident kimi statusundan qaynaqlanmırdı. Başqa sözlərlə, Konstitusiya Məhkəməsinin keçmiş prezidentə bəraət vermək hüququ yoxdur. Amma Köçəryanın vəkili Ovannes Xodoyan prokurorluğu Konstitusiya Məhkəməsinin qərarını diqqətlə oxumağa və onu yarımçıq şərh etməməyə çağırıb. Ölkənin ədliyyə naziri Rüstəm Badasyan birmənalı olaraq bildirib ki, Konstitusiya Məhkəməsinin qərarı əsasında o, həbsdən azad edilə bilməz. Nazir iddia edib ki, qərarın müzakirəsi şəraiti şübhəlidir.

Belə ziddiyət Köçəryanın tərəfdarlarının Ermənistan daxilində mövcud iqtidara qarşı fəallaşmasına və çoxsaylı etiraz aksiyaları keçirməsinə səbəb olub. Onların fəallaşmasına Rusiya amili də getdikcə əhəmiyyətli təsir göstərir. Xüsusən də son dövrlər Rusiya prezidenti Vladimir Putinin bu məsələyə xüsusi diqqət ayırması Köçəryan tərəfdarlarının ümidini artırıb. Məsələ ətrafında isə gələn aya qədər mühüm yeniliklərin olması gözlənir.

Xatırladaq ki, oktyabrın 1-də İrəvanda Avrasiya İqtisadi Birliyinin sammiti baş tutmalı və Rusiya prezidenti də bu sammitdə iştirak etməlidir. Amma Köçəryan üzündən Vladimir Putinin Ermənistana gəlib-gəlməyəcəyi dəqiq bilinmir. Yayılan məlumatlara görə, Vladimir Putin Ermənistan hökuməti qarşısında tələb qoyub ki, Ermənistana gələcəyi təqdirdə mütləq Robert Köçəryana baş çəkməlidir. Amma İrəvan bu tələbi yerinə yetirmək istəmir. Bu fonda qeyd edilir ki, Putin hazırkı vəziyyətdə Ermənistana gəlməməyə qərar verib. Ermənistan parlamentinin Daimi Xarici Əlaqələr Komissiyasının üzvü Şirak Torosyan qeyd edib ki, sammitlərdə dövlət başçıları iştirak edir, lakin bu mütləq deyil: "Sammitdə prezident tərəfindən səlahiyyət verilmiş şəxs də iştirak edə bilər. Bunu oktyabrın 1-də görəcəyik". Bildirilir ki, Putinin Ermənistana gəlib-gəlməyəcəyi hələlik Ermənistan hakimiyyət dairələrində müəmma olaraq qalır.

Bundan əvvəl Ermənistanın "Past" qəzeti də Putinin payızda Avrasiya İqtisadi Birliyinin sammitində iştirak etmək üçün İrəvana səfəri zamanı həbsdə olan eks-prezident Robert Köçəryanla görüşmək istədiyini yazıb. Qəzet iddia edib ki, Rusiya tərəfi Putinin həbsxanada Köçəryanı ziyarət etməsi üçün müvafiq təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini tələb edib. Qəzetin yazdığına görə, erməni tərəfi bu tələbi rədd edib, nəticədə Moskva sammitin İrəvanda keçirilməsinin təxirə salınmasını və başqa üzv ölkənin paytaxtına təyin edilməsini də nəzərdən keçirir.

Xatırladaq ki, bu məsələyə "Məlumatlı vətəndaşlar ittifaqı" adlı QHT-nin lideri, Soros fondundan və digər Qərb institutlarından maliyyələşən və Paşinyanın "məxməri inqilabı"ına fəal dəstək verən Daniel İoannisyan özünün "Facebook" səhifəsində münasibət bildirib. İoannesyan yazıb ki, Putin Köçəryanın yanına həbsxanaya getmək istəyirsə öz işidir, amma gərək ehtiyatlı ola. Çünki "qapı arxadan bağlana" bilər: "Vladimir Putin Robert Köçəryanla həbsxanada görüşmək istəyirsə, ehtiyatlı olsun ki, qapını arxasınca bağlamasınlar". Paşinyanın tərəfdaşının bu təhqiramiz mesajı Rusiya mediasında geniş tirajlanıb. Ermənistanın Ədliyyə Nazirliyi isə bildirir ki, Rusiya tərəfindən prezident Putinin İrəvana planlaşdırılan səfəri zamanı həbsxanaya baş çəkmək istəyi barədə heç bir sorğu almayıb. Amma görünən budur ki, Paşinyan Köçəryanı həbsdə saxlamaqla Moskvaya qarşı çıxış edən, özünü onun təzyiqlərinə müqavimət göstərən kimi aparır. "1in.am" saytı isə bunun Ermənistana baha başa gələ biləcəyini yazır: "Rusiyanın məmurları və yarırəsmi dairələri, o cümlədən erməniyönlü ekspertlər Ermənistana qarşı ənənəvi siyasət irəli sürürlər. Nikol Paşinyan hökuməti üçün Robert Köçəryanın həbsdə saxlanıb 2008-ci ilin mart hadisələrinə görə cəzalandırılması təkcə suverenliklə bağlı deyil, prinsipial məsələdir. Çünki bu həbs onu hakimiyyətə gətirən başlıca amillərdəndir. Amma Rusiya amilinin işə qarışması Paşinyan üçün müsbət nəsə vəd etmir. İstisna olunmur ki, gələn aya kimi bu məsələ həllini tapmasa, Rusiyanın Ermənistana genişmiqyaslı təzyiqlər dalğasının işə düşməsini gözləmək olar. Bu isə Ermənistanın əhəmiyyətli dərəcədə zəifləməsi deməkdir".

**İndi Ermənistanda böyük həsrətlə Putinin gələn ay Avrasiya İqtisadi Birliyinin sammitinə qatılıb-qatılmayacağını gözləyirlər. Xatırladaq ki, Vladimir Putin ötən ilin payızında Ermənistandakı hakimiyyətin yürütdüyü siyasətə etiraz olaraq İrəvana səfərini təxirə saldı. Bu, Moskvanın Paşinyan hökumətinə etimad etmədiyinin nümunəsi idi. Bu dəfə də Rusiya prezidentinin analoji addım atması gözlənir. Putinin Köçəryanın həbsdə qalmasına, deməli, Rusiyayönlülərin fəaliyyətinə göz yumub İrəvana səfər etməsi inandırıcı sayılmır.**

***Nahid SALAYEV***

# Daxili siyasətə xarici müdaxilələrə qarşı geniş siyasi dialoq başladı - tək AXCP və Müsavatdan başqa...

## Əliyev iqtidarının təşəbbüsünə müxalifətdən nikbin reaksiyalar var, ölkə ümumi siyasi barışıq ovqatında...

**Sentyabrın 11-də "Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi" mövzusunda Ana Vətən Partiyasının təşkilatçılığı ilə "dəyirmi masa" keçirilib. Tədbirdə "dəyirmi masa"nın iştirakçıları olan siyasi partiyaların sədrləri, üzvləri, vətəndaş cəmiyyəti təmsilçiləri, media rəhbərləri və müstəqil siyasi ekspertlər beynəlxalq aləmdə, o cümlədən, regionda baş verən mürəkkəb və həssas prosesləri, real imkan və perspektivləri hərtərəfli müzakirə edərək, Azərbaycanın müstəqilliyinin, eləcə də dövlətçilik prinsiplərinin daha da möhkəmləndirilməsi mövzusunu müzakirə ediblər.**

Qeyd edək ki, tədbirdə hakim Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, AĞ Partiyanın sədri Tural Abbaslı, Azərbaycan Milli İstiqlal Partiyasının sədr əvəzi Arzuxan Əlizadə, Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev, BAXCP sədri Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa, həmçinin, media və vətəndaş cəmiyyətinin nümayəndələri iştirak ediblər. Tədbirin sonunda "dəyirmi masa" iştirakçıları bəyanat qəbul ediblər. "Dəyirmi masa"da qəbul edilən bəyanatda deyilir:

"Biz, "Ölkəmizdəki siyasi proseslərə xarici müdaxilənin yolverilməzliyi" mövzusunda təşkil edilmiş "dəyirmi masa"nın iştirakçıları olan siyasi partiyaların, vətəndaş cəmiyyətinin təmsilçiləri, media rəhbərləri və müstəqil siyasi ekspertlərin bu gün beynəlxalq aləmdə, o cümlədən, regionda baş verən mürəkkəb və həssas prosesləri, real imkan və perspektivləri hərtərəfli müzakirə edərək, Azərbaycanın müstəqilliyinin, eləcə də dövlətçilik prinsiplərinin daha da möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin olunması, taleyüklü məsələlərdə milli həmrəyliyimizin tam şəkildə bərqərar edilməsi, xalqımızın həyat səviyyəsinin, dövlətimizin iqtisadi və hərbi potensialının, beynəlxalq aləmdə nüfuzunun və təsir imkanlarının daha da gücləndirilməsi məqsədilə:

- Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının qısa müddətdə işğaldan azad edilməsi istiqamətində, hərb yolu da daxil olmaqla, atılacaq addımları birmənalı şəkildə müdafiə edəcəyimizi bəyan edir,

- siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın ordu qurculuğuna və silahlı qüvvələrimizə hərtərəfli və birmənalı dəstəyinin zəruriliyini ifadə edir,

- ölkədə həyata keçiriləcək islahatları dəstəkləyir, ardıcıl və davamlı olmasını vacib sayır,

- vətəndaş sülhü və milli həmrəylik istiqamətində birgə fəaliyyətin göstərilməsinin zəruriliyini nəzərə alaraq, siyasi mübarizədə etik normalara, milli-mənəvi və əxlaqi dəyərlərimizə zidd əməllərə yol verməməyə, eyni zamanda, davamlı dialoq mühitinin yaradılmasına, sosial şəbəkələrdə, o cümlədən, kütləvi informasiya vasitələrində təhqir, böhtan və şayiə xarakterli məlumatlar yaymamağa çağırır,

- respublikamızda keçirilən seçkilər zamanı bu prosesə beynəlxalq hüquqa zidd hər hansı xarici müdaxilənin yolverilməz olduğunu xüsusi vurğulayır və belə müdaxilə cəhdlərinə qarşı birgə fəaliyyəti zəruri saydığımızı bildiririk".

Təəssüf ki, xaricdə fəaliyyət göstərərək Azərbaycandakı siyasi proseslərdə yaxından iştirak etmək cəhdlərində olan şəxslər peyda olub. Bunu hakim Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini - icra katibi Əli Əhmədov Bakıda siyasi partiya nümayəndələrinin iştirakı ilə keçirilən "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda "dəyirmi masa"da deyib.

Ə.Əhmədov bildirib ki, həmin şəxslər xaricdən sığınacaq almaqla Azərbaycan vətəndaşlığından imtina etməyə bərabər addım atıblar: "İkincisi, xaricdə sığınacaq aldığına görə çox məhdud dövlət yardımı ilə yaşayan insanların geniş siyasi fəaliyyət göstərmək, təbliğat maşınını yaratmaq, onu idarə etmək kimi imkanları yoxdur. Deməli, bunlar istəsələr də, istəməsələr də, bu fəaliyyəti göstərmək üçün hər hansı bir kənar maliyyə dəstəyinə ehtiyac duyurlar və bu dəstəyi almaq üçün ayrı-ayrı maraqlı qüvvələrin təsiri altına düşməyə məhkumdurlar. Digər tərəfdən, onlar bu məsələdə maraqlı olan xüsusi xidmət orqanları üçün tamamilə açıq olurlar, ardıcıl olaraq xarici xüsusi xidmət orqanları tərəfindın asanlıqla ələ alına bilən, yönəldilə bilən bir qrupa çevrilirlər. Bu mənada, o insanların Azərbaycan siyasətinə təsir etmək cəhdləri həm təhlükəli, həm də yolverilməzdir".

İcra katibi vurğulayıb ki, ayrı-ayrı dövrlərdə xarici emissarların Azərbaycanda keçirilən mitinqlər, küçə yürüşlərini nə dərəcədə yaxından izlədikləri və yaxud hansısa formada yönəltdiyi ilə bağlı kifayət qədər misallar gətirmək mümkündür: "Hakimiyyət iddiasında olan bütün siyasi partiyalar, ilk növbədə, milli maraqlardan çıxış edərək siyasi proseslərin iştirakçısı olmalıdır və hər hansı kənar qüvvənin siyasi proseslərə müdaxilə etməsinə imkan verməməlidirlər. Biz bu gün xaricdə mühacir qismində sığınacaq tapmış bəzi insanların indiki texnologiyanın imkanlarından istifadə edərək Azərbaycana qarşı apardığı çirkli təbliğat kampaniyasına qarşı qəti sözümüzü deməyi bacarmalıyıq. Bu mənada, bugünkü tədbiri xüsusi qiymətləndirmək istəyirəm".

Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini - icra katibi Əli Əhmədov "dəyirmi masa"da bəzi müxalifət partiyaları tərəfindən səsləndirilən iddialara da cavab verib. Bildirib ki, heç bir təşkilat hansısa ölkənin daxili işinə qarışa bilməz: "Onlar müşahidə apara bilərlər. Kiminsə seçilməsi ilə bağlı məsələ ortaya qoya bilməzlər".

Ə.Əhmədov Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlunun Prezident İlham Əliyevin Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevlə görüşü ilə bağlı səsləndirdiyi fikirlərə də cavab verib: "Sərdar Cəlaloğlu, sən Patruşevlə danışıqlarda iştirak etmisən?! Bilmədiyin halda niyə ağlına gələn bəyanatlarla çıxış edirsən?! Bizdə də "Dostluq" ordeni var.

*(Ardı 9-cu səh.)*



***Əli Əhmədov:** "O insanların Azərbaycan siyasətinə təsir etmək cəhdləri həm təhlükəli, həm də yolverilməzdir"*

***Əli Əliyev:** "Hər halda, iqtidarla müxalifət arasında təmasın olmasının özü müsbət haldır"*

***Tural Abbaslı:** "Tərəflər arasında polemika olmalı və çıxış yolları tapılmalıdır"*

***Arzuxan Əlizadə:** "Belə tədbirlərə müsbət yanaşıram və bu davamlı olmalıdır"*

***Fazil Mustafa:** "Bu tədbir ilkin başlanğıc olduğuna görə gələcəkdə bu tendensiyanı inkişaf etdirmək vacibdir"*

*(Əvvəli 8-ci səh.)*

Rusiyada da, həmçinin, bu ənənə var. Bu, torpağın qorunmasına və müdafiə olunmasına görə deyil, sadəcə, dövlətlər və ölkələrarası münasibətlərə töhfə verildiyinə görə təqdim edilir. Qeyri-ciddi fikirlər deməklə mətbuatı çaşdırmaq lazım deyil. Biz burada dedi-qodu ilə məşğul olmamalıyıq. Halbuki, müzakirə mövzusu başqadır. Etiraf etmək lazımdır ki, Azərbaycanın hansısa səviyyəyə qalxdığını hər kəs yaxşı bilir. 20 il əvvəlki Azərbaycan indiki kimi idi?!"

Ə.Əhmədov bildirib ki, bu görüşdə toplaşmağın əsas məqsədi Azərbaycanda siyasi proseslərə xarici müdaxilələr məsələsini müzakirə etməkdir: "Əgər biz müzakirəyə çıxarılan məsələ ilə əlaqədar fikir mübadiləsi aparıb vahid qərara gəlmək istəyiriksə, bu barədə danışaq. Əksinə, digər məsələləri bu tribunadan istifadə edib bura tökmək istəyiriksə, heç nəyə nail ola bilməyəcəyik".

Qeyd edək ki, "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda keçirilən "dəyirmi masa"da AXCP və Müsavat partiyalarının nümayəndələri iştirak etməyiblər.

Göründüyü kimi, sözügedən tədbirdə iqtidar və müxalifət partiyaları bir araya gələrək müzakirələr aparıblar. Neçə vaxt idi iqtidar və müxalifət partiyalarının birgə iştirakı ilə belə toplantılar keçirilmirdi. Ona görə də sözügedən partiyaların bir araya gəlməsi, tədbirin nəticələri ilə bağlı bir sıra partiya sədrlərinin təəssüratlarını öyrənməyə çalışdıq.

Məsələyə münasibət bildirən Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevin sözlərinə görə, 5 il fasilədən sora ilk dəfə idi ki, belə səviyyədə birbaşa təmas qurularaq tədbir keçirildi: "Hələlik uzağa gedən nəticələr barəsində danışmaq tezdir. Mənə elə gəlir bu bir sınaq tədbiri idi. Tərəflər öz mövqelərini bildirdi. Ancaq müxalifətin bir hissəsi tədbirə qatılmamışdı. Ona görə də bu hələlik nisbi fikir söyləməyə o qədər də əsas yaratmır. Ancaq, hər halda, iqtidarla müxalifət arasında təmasın olmasının özü müsbət haldır. Uzun fasilədən sonra birbaşa ünsiyyətin yaranması, arqumentlərin səslənməsinin özü müsbət dəyərləndirilə bilər. O baxımdan tədbir barədə ilkin təəssüratlarım bundan ibarətdir".

AĞ Partiyanın başqanı Tural Abbaslının sözlərinə görə, son illər ərzində ilk dəfə idi ki, belə formatda görüş keçirilirdi: "Müxalifət təmsilçiləri ilə yanaşı, Baş nazirin müavini və millət vəkilləri səviyyəsində ilk dəfə idi belə tədbir keçirildi. O cümlədən, QHT və media təmsilçilərinin iştirakı ilə belə böyük formatda tədbir təşkil olundu. Ona görə də bir partiya rəhbəri olaraq bunu müsbət hal kimi qiymətləndirirəm. Çünki siyasət bir konsensusa gəlmək sənətidir. Təəssüf ki, uzun illər Azərbaycanda müxalifətlə iqtidar bir-birinə düşmən kimi yanaşıb. Belə bir rəy yaradılıb ki, bu iki düşərgə bir-birinə düşməndir və bunlar bir masa ətrafında otura bilməz. Hansı ki, bu düzgün yanaşma deyil. Hesab edirəm ki, belə tədbirlərin təşkilində iqtidar partiyalarının üzərinə daha çox məsuliyyət düşür. Digər tərəfdən, təəssüflər olsun ki, müxalifət belə görüşlərə qatılanda buna mənfi yanaşanlar olur. Söhbət müxalif düşərgədən gedir. Hesab edirəm ki, bu doğru deyil. Tərəflər arasında polemika olmalı və çıxış yolları tapılmalıdır. Bunun nəticəsində də xalq udmalıdır. Ona görə də bu təşəbbüsü alqışlayıram və güman edirəm ki, bu, protokol xatirinə keçici tədbir olmaz. Belə tədbirlərin davamı və real nəticələri olar. İqtidarla müxalifət bir araya gəlib vacib məsələlərlə bağlı tez-tez belə tədbirlər keçirməlidirlər".

Azərbaycan Milli İstiqlal Partiyasının sədr əvəzi Arzuxan Əlizadənin sözlərinə görə, bu cür tədbirlərin keçirilməsi ilə bağlı bizim dəfələrlə təkliflərimiz olub: "Xüsusən də iqtidar və müxalifət partiyalarının bir araya gələrək müzakirələr aparmasında maraqlı olmuşuq. Bu mənada, sözügedən tədbiri təqdirəlayiq hesab edirəm. Çünki ölkədə çox ciddi siyasi islahatlara ehtiyac var. Bu islahatlar yalnız danışıqlar yolu və iqtidar-müxalifət dialoqu ilə həll oluna bilər. Ona görə də belə tədbirlərə müsbət yanaşıram və bu davamlı olmalıdır".

**Böyük Quruluş Partiyasının başqanı, millət vəkili Fazil Mustafa hesab edir ki, keçirilən tədbir başlanğıc baxımından növbəti görüşlər üçün yaxşı zəmin yaratdı: "Ölkədə təhlükəsizliyin qorunması və digər məsələlər ətrafında müzakirələrin aparılması müsbətdir. Bu tədbir ilkin başlanğıc olduğuna görə gələcəkdə bu tendensiyanı inkişaf etdirmək vacibdir. Bu olandan sonra, ən azından, müsbət nəticələr də ortaya çıxacaq".**

***Vidadi ORDAHALLI***

---

**Amulsar problemi Paşinyan hakimiyyətini olduqca çətin duruma salıb. Ermənistan mətbuatında məhz bununla bağlı son bir ay ərzində baş verən hadisələr sadalanıb. Həmin siyahıdan görünür ki, hakimiyyət yaranmış problemlə bağlı hansı addımları atacağını proqnozlaşdıra bilmir.**

# Amulsar Paşinyan hakimiyyətini çarəsiz durumda buraxıb - partiyalar parçalanıb, cəmiyyət üzə durub, xarici investisiya tam kəsilmək durumunda...

13 avqusta Rusiya Təhlükəsizlik Şurasının katibi Patruşev Ermənistana səfər edib və bundan sonra Paşinyanın bir köməkçisi və məsləhətçisi işdən çıxarılıb. Hər iki şəxs xarici iqtisadi məsələləri kurasiya edirmiş.

15 avqustda Ermənistan istinaq qurumunun rəhbəri Ayk Qriqoryan Amulsarla bağlı beynəlxalq ekspert qrupunun yekun rəyini təqdim edib. Orada bildirilir ki, Amulsar ekologiya üçün heç bir problem yaratmır.

19 avqustda Paşinyan bir saat yarımlıq çıxışında Amulsarın istismarına icazə verilməsini xahiş edib və bildirib ki, bunun ekolgiyaya mənfi təsiri olmayacaq.

21 avqustda Baş nazirin aparatı ətraf mühitin mühafizəsi nazirliyinə yenidən müraciət edib ki, Amulsarın ətarf mühitə ziyan vurub-vurmamasına rəy verilsin.

23 avqustda Paşinyan şəxsən Cermuka gedib ki, bu problemi ətrafdakı yerli əhali ilə müzakirə etsin. Orada yerli əhali Baş naziri etiraz aksiyası ilə qarşılayıb.

24 avqustda İrəvanda "Amulsar dağ olaraq qalsın" adlı etiraz yürüşü təşkil olunub.

27 avqustdan sonra isə gedişat bir qədər dəyişib.

28 avqustda Paşinyan keçirdiyi videkonfransda bildirib ki, vəziyyət yeni yanaşma və qiymətləndirmənin ortaya qoyulmasını tələb edir.

29 avqustda "Lidian" yaranmış vəziyyətdən təəssüfləndiyini ifadə edən bəyanat yaydı.

2 sentyabrda ABŞ-da fəaliyyət göstərən Erməni Ticarət Palatası bəyanat yayaraq, Amulsarın istismarına başlamağa çağırış etdi.

Sentyabrın 5-də Ermənistanın milliyyətçi partiyası olan "Sosna-Tsrer" Paşinyanla görüş keçirib. Görüşdən sonra partiyanın rəsmisi bildirib ki, onlar Baş nazirə xəbərdarlıq ediblər. Məğzi də budur ki, Amulsarda işlərə icvazə verilsə, ilk etirazı onlar edəcəklər.

Qeyd edək ki, Amulsarda işlərin dayandırılmasını yalnız müxaliflər deyil, həm də Paşinyanın öz partiyası tələb edir. Prosesin gedişi nə vəd edir?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanda Amulsar ətrafında yaranan narazılıq daha şiddətlə davam edir: "Sizinlə daha öncə bu fonda proseslərin həmin ölkənin parlamentini parçalaması və yeni parlamentdə Paşinyanı dəstəkləyən fraksiyaların belə bu məsələdə Baş nazirin mövqeyi ilə razılaşmaması və bunun ölkədə parlament böhranının yarana biləcəyinə gətirib çıxaracağına dair fikirləri bölüşmüşdük. Bilirik ki, Ermənistanda son parlament seçkiləri inqilab sonrası Paşinyana loyal çoxluğun, xüsusilə müxtəlif iqtisadi qrupların təmsilçiliyi ilə nəticələndi.

Paşinyanın istər komandası, istərsə də parlamentdə idarəçilik siyasəti əsasında qruplar arasında balans mənevri durur, bu isə belə işlərdə təcrübəsiz Paşinyan üçün çox da asanlıqla alınmır və artıq bir neçə aydır Baş nazirin bu balansa nəzarət edə bilməməsi aydın sezilir.

Hələ İrəvan küçələrində etirazlara rəhbərlik edən Nikol Paşinyanın həyat yoldaşı tərəfindən ölkədə maraqları və gözləntiləri olan transmilli korporasiyaların nümayəndələri ilə görüşləri və götürdükləri öhdəlikləri mövcuddur.



Paşinyanın seçki kampaniyası ərəfəsi komandasının sıx kontaktda olduğu biznes dairələr və onlarla razılaşmalar mövcuddur. Bunlardan biri "Lidian Armenia" şirkətidir və bu şirkət Amulsar qızıl yataqlarına 2016-cı və 2019-cu illərdə 400 milyona yaxın maliyyə yatırıb.

Bu şirkətlə yeni hökumət Amulsar dağındakı qızıl yatağının işlənməsi ilə bağlı çərçivə razılaşma sənədi imzalayıb. Müqavilənin şərtlərinə görə, Ermənistan hökuməti şirkətlə danışıqları ləğv edəcəyi halda, şirkətin investisiya formasında yatırdığı 400 milyon dollarlıq maliyyədən kənarda həm də 700 milyon dollar cərimə ödəməlidir. Beynəlxalq Arbitraj Məhkəməsinə müraciət olunacağı halda bu məbləğ daha çox olacaq. Bu isə o deməkdir ki, Ermənistanı da bu günlərdə Qərbi Afrika ölkəsi Nigeriyanın aqibəti gözləyir. Xatırladım ki, Nigeriya da qaz yataqlarının işlənməsi ilə bağlı İngiltərə şirkəti ilə ləğv etdiyi sazişə görə Arbitraj Məhkəməsi tərəfindən 9 milyard dollar cərimə edilmişdi.

İndi Ermənistan hökuməti bu ssenarinin astanasındadır və cərimənin tətbiqi kiçik büdcəli Ermənistan üçün defolt təhlükəsi yaratması və ölkənin bu yükün altından çətinliklə çıxacağı aydındır".

Yeganə Hacıyevanın sözlərinə görə, siyasi hakimiyyətin Amulsarın fəaliyyətə başlamasının işsizliyin azalmasına kömək edəcəyi, sosial-iqtisadi vəziyyətin güclənməsinə xidmət edəcəyi təbliğatı, müxalifət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin isə bunun əksi olan təbliğatı mövcuddur: "Müxalif qruplar qızıl mədəninin fəaliyyətə başlamasının ətraf mühit və su təchizatına ciddi dərəcədə zərər vuracağı qənaətindədirlər.

Paralel olaraq proseslər xalqın istəyinin təmin edilməsi məqsədilə referendumun keçirilməsi barədə çağırış edən siyasi qrupların tələbləri ilə gərginləşir, bu çağırışın aktiv təşəbbüsçüsü yarımhərbi "Daşnaksütyun" partiyasıdır. Layihənin parlamentdə səsə qoyulması kimi təşəbbüslər ölkənin ən böyük partiyası olan hakim "Mənim addımım" alyansı daxilində parçalanmaya səbəb olması kimi proseslərlə nəticələnəcəyi gözləniləndir. Ölkənin ən böyük partiyası olan müxalif "Çiçəklənən Ermənistan" partiyası isə ictimai konsensusa əsaslanaraq qərar verilməsinin vacib olduğunu vurğulayıb və aksiyaçılara qoşulan partiyanın lideri Naira Zöhrabyan, əhalinin etirazı olacağı təqdirdə, Amulsar qızıl mədənində aparılacaq fəaliyyətə qarşı çıxacaqlarını söyləyib. Parlamentin digər qrupu olan "İşıqlı Ermənistan" partiyası isə, digərlərindən fərqli olaraq, radikal davranmayıb və əhalinin narahatlığını bölüşdüyünü qeyd edib.

Paşinyan hökumətinin "Lidian Armenia" şirkətini haqlı mövqeyindən çəkindirmək istiqamətində addım kimi şirkətin lisenziyasını ləğv edəcəyi haqda fikirlərinə gəlsək, bu, ABŞ-Ermənistan, Böyük Britaniya münasibətlərinə xələl gətirəcək və xarici investorları qorxudacaq. Bu isə uzunmüddətli perspektivdə Ermənistan üçün ağır nəticələr verəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Beynəlxalq maliyyə institutlarının manat istiqrazlarına diqqəti artır

**Bu gün MDB məkanında ən sabit valyutalardan biri qismində Azərbaycan manatının çıxış etməsi artıq beynəlxalq miqyasda qəbul edilən həqiqətdir. Son iki ilə nəzər saldıqda manatın doğrudan da digər MDB, eləcə də bir çox Asiya ölkələrinin milli valyutalarına nisbətdə sabit həddə qalması aydın müşahidə olunur.**



Belə vəziyyət beynəlxalq maliyyə qurumlarının da diqqətindən yayınmır. Elə bu səbəbdəndir ki, manatla istiqraz buraxılışına maraq da artmaqdadır.

Xatırladaq ki, artıq bu xüsusda müvafiq təcrübə də var. Azərbaycanın üzv olduğu beynəlxalq maliyyə institutları ilə uzunmüddətli sıx əməkdaşlığı nəticəsində onlardan biri ölkədə ilk dəfə milli valyutada istiqrazları emissiya edib. Söhbət Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) 10 milyon manatlıq istiqraz emissiyasından gedir. Qiymətli kağızlar kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-də yerləşdirilib.

Ötən ay həyata keçirilən bu proseslə bağlı hərracda rekord göstəricilər əldə edilib. Belə ki, bankın 10 milyon manat məbləğində kütləvi təklif üsulu ilə ticarətə buraxılmış istiqrazlarına 81 milyon manatlıq sifariş olub. Başqa sözlə, rəqabətli hərrac üsulu ilə yerləşdirilmiş istiqrazlara tələb təklifi 8 dəfə üstələyib. Yerli qiymətli kağızlar bazarında ilk dəfə beynəlxalq maliyyə institutunun milli valyutada emissiya etdiyi istiqrazlara investorlar tərəfindən rekord sayda - 63 sifariş təqdim olunub. Bu fonda manatla sözügedən qurum tərəfindən istiqraz buraxılışının davam etməsi gözlənilir. Tədavül müddəti 730 gün olan istiqrazlar üzrə ödəmə tarixi 31 iyul 2021-ci ildir. İllik faiz dərəcəsi 9,25% təşkil edir və faizlər rübdə bir dəfə ödənilir. Onu da bildirək ki, Qara Dəniz Ticarət və İnkişaf Bankının manatla yerləşdirdiyi istiqrazlar hesabına cəlb etdiyi vəsait "Turan Bank" ASC-yə verilib. Bankla adıçəkilən beynəlxalq maliyyə institutu arasında 8 illik uğurlu əməkdaşlıq var. Odur ki, milli valyutada cəlb edilmiş vəsaitin "Turan Bank" vasitəsilə sahibkarlığın inkişafına yönəldilməsinə qərar verilib. Ekspertlər hesab edir ki, manat istiqrazları ilə buraxılış beynəlxalq müstəvidə həyata keçirilən uzunmüddətli strategiya, əməkdaşlıq nəticəsində əldə olunmuş mühüm nailiyyətdir. Beynəlxalq maliyyə institutları tərəfindən yerli bazarda buraxılan istiqrazlar isə ölkədə sahibkarlığın inkişafına da mühüm dəstək sayılır.

Xatırladaq ki, Qara Dəniz Ticarət və İnkişaf Bankı Qara dəniz ətrafı ölkələrin regional inkişafı və əməkdaşlığına dəstək məqsədilə 1999-cu ildə yaradılıb. Azərbaycan da daxil olmaqla, 11 ölkənin üzv olduğu təşkilatın əsas fəaliyyət istiqaməti Qara dəniz regionu ölkələrində iqtisadi tərəqqinin və regional əməkdaşlığın inkişafı məqsədilə üzv ölkələrdə kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi, ticarətin və digər layihələrin dəstəklənməsi, müxtəlif təminatların verilməsi, həmçinin dövlət və özəl təşkilatların kapitalında iştirakdır. Sözügedən təşkilat tərəfindən Azərbaycan qiymətli kağızlar bazarında 2019-cu və 2020-ci illərdə daha böyük məbləğlərdə istiqraz emissiyası və cəlb olunmuş vəsaitlərin ölkədə sahibkarlığın inkişafına yönəldilməsi nəzərdə tutulub. Amma real vəziyyət göstərir ki, manatla istiqraz məsələsi təkcə Qara Dəniz Ticarət və İnkişaf Bankının maraq dairəsində deyil. Artıq digər nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən yerli bazarda istiqraz buraxılışlarının həyata keçirilməsi nəzərdə tutulur.

Yayılan məlumatlardan belə bəlli olur ki, artıq Asiya İnkişaf Bankı Azərbaycan manatı ilə ilk istiqrazlarını 2020-ci ildə tədavülə buraxa bilər. Məsələ ilə bağlı "report"a məlumat verən mənbə bildirib ki, manat istiqrazlarının buraxılması borcalanların seçiminə görə yubanır. Belə ki, bu seçim zamanı başlıca meyarlardan biri beynəlxalq maliyyə hesabatları standartlarına uyğun həyata keçirilən auditor rəyinin mövcudluğu sayılır.

Gözlənir ki, Asiya İnkişaf Bankı mövcud tələblərə uyğun gələn məqbul sayda borcalanın seçilməsindən sonra 50 milyon manat məbləğində, borcalanlar az olsa, daha az məbləğdə istiqraz buraxmağı nəzərdə tutur-du. Həmin vəsaitin də məhdud sayda bankların və qeyri-bank kredit təşkilatlarının maliyyə dəstəyinə sərf olunacağı güman edilir. Mikromaliyyə təşkilatları da həmin vəsaitləri təkrar kredit vasitəsilə əldə edə biləcək. Qeyd edək ki, Asiya İnkişaf Bankı postsovet regionunda milli valyutalarda istiqraz buraxmaq təcrübəsinə malikdir. Belə ki, bu ilin yanvar ayında 80 milyon dollar məbləğində, dəyişkən faiz dərəcəsilə Qazaxıstan təngəsində beş və yeddi il müddətinə müvafiq olaraq üç və beş ildən sonra erkən qaytarmaq imkanının verildiyi istiqrazlar buraxılıb.

Bununla yanaşı, 2016-cı ildə 225 milyon dollar məbləğində Filippin pesosunda istiqrazlar buraxmışdı.

Həmin vəsaitlər, geotermal enerjisi də daxil olmaqla, bir sıra ekoloji layihələrə sərf olunmuşdu. Azərbaycanda isə, əslində Asiya İnkişaf Bankının istiqrazlarına tələbin böyük olması gözlənir. Ən azı o baxımdan ki, ortada Qara Dəniz Ticarət və İnkişaf Bankının təcrübəsi var. Yuxarıda qeyd olunduğu kimi, bu bankın rəqabətli hərrac üsulu ilə yerləşdirilmiş istiqrazlarına tələb təklifi 8 dəfə üstələyib. Eyni prosesin Asiya İnkişaf Bankının istiqrazlarında da qeydə alınması gözlənir.

**Elə bu durum da öz növbəsində manat istiqrazlarına tələbin bundan sonra yüksələcəyini deməyə əsas verir. Belə vəziyyət isə manatın valyuta olaraq artıq dünya miqyasında da nüfuzunun yüksəlməsinə şərait yaradır.**

***Tahir TAĞIYEV***

**Azərbaycan universitetlərində ödənişli ixtisaslarda təhsil alan tələbələrin ödəniş haqları ilbəil artmaqda davam edir. Əhalinin müəyyən təbəqələrinin maddi vəziyyətinin aşağı olduğunu nəzərə alsaq, nəticədə ortaya ciddi problemlər çıxır. Bir sıra hallarda ödəniş haqları insanların maddi vəziyyəti ilə uzlaşmır. Bu səbəbdən abituriyentlər də universitet oxuya bilməmək məcburiyyətində qalırlar.**

# Özəl universitetlər üçün təhsil haqqı məsələsində güzəşt kateqoriyası yoxdur...




## Məlahət Mürşüdlü: "Təəssüflər olsun ki, özəl universitetlər bunda maraqlı deyil"

Bir çox ailə var ki, övladını oxuda bilmək, onların təhsil haqqını ödəmək üçün borca girir. Buna görə də övladını yaxşı geyindirə, qidalandıra bilmir. Dövlət ali təhsil müəssisələrində ödənişli ixtisaslarda oxuyan və əhalinin müəyyən həssas təbəqəsinə aid olan şəxslər üçün güzəştlər var. Həmin şəxslər təhsil haqqından azaddırlar. Məsələn, dövlət ali təhsil müəssisələrində ödənişli əsaslarla təhsil alan məcburi köçkünlər, müharibə əlillərinin övladları, şəhid ailəsi statusunu almış ailənin üzvləri, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, bir valideyni vəfat etmiş və o biri valideyni I və II qrup əlil olan 18 yaşınadək şəxslər təhsil haqqı ödəməkdən azaddırlar. Ödənişli ixtisaslarda oxuyan sözügedən kateqoriyadan olan şəxslərin təhsil haqqını dövlət öz üzərinə götürür.

O da məlumdur ki, ölkədə çoxsaylı özəl universitet fəaliyyət göstərir. Hamısında da təhsil haqqı yüksəkdir. Təhsil haqqı bir qədər gecikən kimi, müxtəlif vasitələrə əl atırlar. Ancaq ölkədəki özəl universitetlərin heç birində əhalinin müəyyən həssas təbəqələr üçün güzəştlər tətbiq edilmir. Bu və digər kateqoriyaya aid olan şəxslər təhsil haqqından azad edilmir. Ümumiyyətlə, sözügedən məsələdə özəl universitetlər korporativ sosial məsuliyyət təşəbbüsündən uzaqdırlar. Hansı ki, dünyanın bir sıra ölkələrində özəl ali məktəblər müəyyən güzəştlər tətbiq edirlər. Məsələn, qonşu Türkiyədə özəl universitetlərdə oxuyan şəhid ailələrinin övladları təhsil haqqı ödəməkdən azaddırlar.

Bütün bunların fonunda, maraqlıdır, özəl universitetlərdə təhsil haqqı ilə bağlı güzəşt kateqoriyası niyə yoxdur?

*"Hər bir özəl ali məktəb öz daxili imkanlarından irəli gələrək bəzi sosial kateqoriyaya aid olan tələbələri təhsil haqqından azad edə bilər"*

Məsələyə münasibət bildirən təhsil sahəsi üzrə ekspert Məlahət Mürşüdlünün sözlərinə görə, özəl universitetlər bunda maraqlı deyil: "Ona görə də bu kimi güzəştlərdən yayınırlar. Nəticədə görürsən ki, bir çox tələbə təhsil haqqını ödəyə bilmədiyi üçün ali məktəbdə oxumaqdan imtina edir. Ötən il bu rəqəm təxminən 17 min nəfər olub. Dövlət ali təhsil müəssisələrində əhalinin müəyyən həssas təbəqəsi üçün güzəştlər olsa da, özəl universitetlərdə belə güzəştlər tətbiq edilmir. Bu çox təəssüf doğuran haldır. Düzdür, özəl universitetlər özləri-özlərini maliyyələşdirirlər. Ancaq hər bir özəl ali məktəb öz daxili imkanlarından irəli gələrək bəzi sosial kateqoriyaya aid olan tələbələri təhsil haqqından azad edə bilər. Bir sıra özəl ali məktəblərin buna imkanı da var. Ancaq təəssüflər olsun ki, özəl universitetlər bunda maraqlı deyil. O cümlədən, müxtəlif şirkətləri, iş adamlarını bu işə cəlb etmək olar. Ali məktəbdə təhsil göstəriciləri yüksək olanları ödənişdən azad etmək olar. Türkiyədə bununla bağlı təcrübə var. İqtisadi durumu aşağı səviyyədə olan ailələrin övladları təhsil haqqından azad edilir. Bizdə isə özəl ali məktəblər bu kimi təşəbbüslə çıxış etmirlər. Hesab edirəm ki, bu yöndə maarifləndirmə işi aparılmalıdır. Müəyyən sosial xarakterli çağırışlar səslənməlidir. İnzibati yolla özəl ali məktəbləri buna məcbur etmək olmaz. Gərək onlar özü bunda maraqlı olsunlar".

***Vidadi ORDAHALLI***

---

**4 yaşlı qız hovuza düşüb öldü... Azyaşlı çirkab kanalına düşərək boğuldu... 3 yaşlı qız su nohurunda batdı... 3 yaşlı uşaq bağlı qapı arxasında qaldı... Son vaxtlar informasiya lentlərində adi, kriminal xronikaya aid quru xəbər formasında verilən, əslində isə hər birinin arxasında dəhşətli faciə dayanan bu kimi xəbərlərə tez-tez rast gəlirik.**

# Uşağı evdə bağlı qapı arxasında qoyub getmək - Bakıda yeni problem...



## Könül Vaqifqızı: "Valideyn məsuliyyətsizliyi ilə bağlı cəzalar tətbiq olunmalıdır"

Təəssüf ki, valideyn məsuliyyətsizliyi xoş olmayan hadisələrin yaşanmasına səbəb olur. Son zamanlar evdə köməksiz vəziyyətdə qalan uşaqlarla bağlı Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə edilən müraciətlərin sayı artıb. Hətta bununla bağlı adıçəkilən nazirlik əhaliyə müraciət edib.

Müraciətdə deyilir: "Cari ilin iyul və avqust aylarında "qaynar xətt"ə köməksiz vəziyyətdə qalan azyaşlılar barədə bağlı qapı arxasında qalma 42, liftdə qalma hadisəsi üzrə isə 33 əməliyyat məlumatı daxil olub. Ümumilikdə, 75 əməliyyatda 89 azyaşlı təhlükədən xilas olunaraq ailə üzvlərinə və yaxınlarına təhvil verilib.

Bu kimi hadisələrin sayının çoxalmasını, mənzillərdə balacaların həyatına təhlükə törədə biləcək açıq elektrik naqilləri, elektrik plitəsi, qaz sobası, açıq eyvan və pəncərələr, düşə biləcək ağır əşyalar, kimyəvi maddələr və s. kimi amillərin mövcudluğunu nəzərə alaraq, valideynləri körpə və azyaşlılara qarşı diqqətli olmağa və onları nəzarətsiz qoymamağa çağırırıq".

Danılmaz faktdır ki, valideynlər uşaqları evdə tək, nəzarətsiz qoyduqda yanğın və s. kimi təhlükəli hadisələr baş verə bilər. Bu kimi hadisələrin qarşısının alınması məqsədilə bir neçə il əvvəl Azərbaycanda evdə uşaqları nəzarətsiz qoyan valideynlərin qanunla məsuliyyətə cəlb edilməsi gündəmə gəlmişdi.

Psixoloq Könül Vaqifqızı bildirdi ki, bu gün gənc anaların əksəriyyəti uşaqlarına lazımi diqqət göstərmir: "Bunun səbəbi valideynlərin daha çox sosial şəbəkəyə aludə olmasıdır. Təəssüf ki, bu gün bəzi valideynlər başları telefona qarışdıqları üçün uşaqlarının nə etdiklərindən xəbərsizdirlər. Azyaşlı uşaqların çoxmərtəbəli binadan yıxılma halları tez-tez qeydə alınır. Məlum olur ki, valideyn internetdə dostları ilə danışırmış, başı qarışıb. Uşaq isə pəncərəyə çıxaraq oradan yıxılıb. İndiyədək azyaşlıların açıq-aşkar məsuliyyətsizlik və laqeydlik üzündən həlak olması hallarına görə cəzalanan, deməmk olar, yoxdur. Belə hallar bədbəxt hadisə kimi qeydə alınır və valideynlər barədə cinayət işi qaldırılmır.

*"2 yaşlı körpəni nəzarətsiz qoyub qaynar su qazanına düşməsinə, yaxud 3 yaşlı uşağı başlı-başına buraxıb su quyusuna düşməsinə və boğulmasına səbəb olmaq cinayət deyil, bəs nədir?"*

Doğrudur, çoxları deyə bilər ki, heç bir valideyn övladının ölümünü istəməz. Ancaq 2 yaşlı körpəni nəzarətsiz qoyub qaynar su qazanına düşməsinə, yaxud 3 yaşlı uşağı başlı-başına buraxıb su quyusuna düşməsinə və boğulmasına səbəb olmaq cinayət deyil, bəs nədir?

**Bəzi valideynlər 1 saatlıq harasa gedən zaman evdə azyaşlı uşağını bağlı qapı arxasında saxlayırlar. Uşağı evdə tək qoyan valideyn onun başına nələrin gələcəyini düşünmür. Valideyn məsuliyyətsizliyi ilə bağlı cəzalar tətbiq olunmalıdır".**

***Günel CƏLİLOVA***

# Atasız qızların təhsil haqqından azad olunması problemi...

**Qız uşaqlarının təhsil almaları, əslində, həm onların, həm də cəmiyyətin sağlam gələcəyi üçün vacibdir. Odur ki, hər bir valideyn övladlarının, xüsusən qızlarının da ali təhsil almaları üçün çalışmalıdır. Təəssüf ki, bəzi ailələr müəyyən səbəblərdən qızlarının ali təhsil almasına qarşı çıxırlar.**

Bu səbəbdən də qız uşaqlarının ali təhsil xərclərinin dövlət tərəfindən ödənilməsi təklif olunur. Belə bir təklifi Milli Məclisin (MM) Səhiyyə komitəsinin sədr müavini, millət vəkili Musa Quliyev səsləndirib.

O qeyd edib ki, təhsillə bağlı büdcənin maliyyə yükünün artırılmasına ehtiyac var. Xüsusilə o səbəbdən ehtiyac var ki, dövlət ali təhsil müəssisələrində təhsil xərclərinin çox hissəsi ödənişsiz olsun. Yəni dövlət ali təhsil ocaqlarına qəbul olunan tələbələrin 70 faizi ödənişsiz təhsil alsın. Bunu da büdcə öz üzərinə götürsə, bu, çox yaxşı olardı: "Bəzi kateqoriyadan - sosial müavinətə ehtiyacı olan şəxslərin təhsil haqları dövlət tərəfindən ödənilir. Bildiyiniz kimi, cənab Prezidentin qayğısı sayəsində qaçqın və məcburi köçkünlərin, 20 Yanvar və Qarabağ əlillərinin, şəhid ailələrinin övladlarının təhsil haqlarını dövlət ödəyir. Hörmətli birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə valideyn himayəsindən məhrum olunmuş uşaqlar, eləcə də bir valideynini itirmiş, digəri əlil olan uşaqlar, həmçinin, birinci və ikinci qrup əlilliyi olan uşaqlar da təhsil haqqını ödəməkdən azaddırlar. Fikrimcə, bu humanist təşəbbüsləri daha da genişləndirərək, ödənişli əsasla universitetlərimizə qəbul olunmuş bütün qızların təhsil haqqını dövlətimiz öz üzərinə götürə bilər. Bu baxımdan, çox istərdim ki, yaxın vaxtlarda biz elə bir qanun qəbul edək ki, bütün qız uşaqlarının xərcləri dövlət tərəfindən ödənilsin. Xüsusilə atası olmayan qız uşaqlarının xərcləri birinci növbədə dövlət tərəfindən ödənilsin. Özü də istər özəl, istərsə də dövlət təhsil müəssisələrində. Dövlət təhsil müəssisələrində isə, bütövlükdə, qız tələbələrin xərcləri dövlət tərəfindən ödənilsin".

Özəl və ya dövlət universitetlərində təhsil alan atasız qızların ödənişli təhsildən azad olunması ictimaiyyət tərəfindən müsbət qarşılanır.

Məlumat üçün bildirək ki, bu il 42062 nəfər ali təhsil müəssisələrinə qəbul olunub. Onlardan 17820 nəfəri dövlət sifarişi əsasında, 24242 nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib. Ancaq ödənişli əsaslarla ali təhsil müəssələrinə daxil olan bəzi tələbələr üçün təhsil haqqını ödəmək elə ali məktəbə qəbul olunmaq qədər çətin olur. Hətta bəziləri bu ödənişi həyata keçirə bilmədikləri üçün təhsildən yayınırlar. Təsadüfi deyil ki, bir müddət əvvəl təhsil eksperti Kamran Əsədov son 5 ildə 7 mindən çox tələbənin təhsil haqqını ödəyə bilmədiyi üçün ali təhsil almaqdan imtina etdiyini açıqlamışdı. Elə bu açıqlamadan sonra Təhsil Nazirliyinin kollegiyasının qərarına əsasən, ali təhsil müəssisələrinin rəhbərlərinə ödənişli təhsil alan tələbələrin təhsil haqlarının təhsil aldığı müddətdə yarımilliklər üzrə ödənilməsinə şərait yaratmaları üçün tapşırıq verildi. Eləcə də sosial şəbəkələr vasitəsilə belə tələbələr müəyyənləşir və onlara könüllü şəxslər tərəfindən yardım olunması prosesi də sürətləndi.



***Fatimə Hacıbəyli:** "Qızların təhsil alması üçün ödənişdən azad olunması, ilk növbədə, erkən nikahın qarşısını alacaq"*

***Nadir İsrafilov:** "Azərbaycanda məhz ödəniş ucbatından minlərlə tələbə ali təhsil ala bilmir, buna görə bütün vasitələrdən istifadə etmək lazımdır"*

Qız uşaqlarının təhsil alması üçün onların təhsil haqqından azad olunması müsbət dəyərləndirilir.

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli bizimlə söhbətində bildirdi ki, qız uşaqlarının təhsil alması üçün hər bir şərait yaradılmalıdır: "Elə ailələr var ki, maddi durumu uyğun olmadığı üçün qızının təhsil almasına qarşı çıxır. Qızların təhsil alması üçün onların ödənişdən azad olunması, ilk növbədə, erkən nikahın qarşısını alacaq. Bölgələrin bir qismində qızlar erkən yaşda təhsildən uzaqlaşdırılaraq ailə qurmağa məcbur edilir. Nə qədər çalışsaq da, mübarizə aparsaq da, erkən nikahların, selektiv abortların bir ucu gəlib təhsilsizliyə dayanır. Buna görə də müəyyən proqramlara ehtiyac var. Millət vəkilinin məlum təklifi reallaşarsa, ailələrdə qızların təhsilə münasibətini müsbətə doğru dəyişəcək".

Ekspertin fikrincə, cəmiyyətdə təhsilli qadınların sayı nə qədər çox olarsa, bu, cəmiyyətin xeyrinə olar. Ona görə də qızlara ali təhsil üçün geniş imkanlar yaratmaq yaxşıdır. Amma mən də düşünürəm ki, bunu kütləvi halda tətbiq etmək lazım deyil. Ali təhsil müəssisələri mütləq aztəminatlı ailələrin övladlarına imkan daxilində güzəştlər etməlidirlər".

Təhsil eksperti Nadir İsrafilov qeyd etdi ki, istər qız, istər oğlan olsun, tələbələrin ödənişdən azad olunması arzulanandır. Amma, konkret olaraq, ali təhsil almaq istəyən qızların ödənişdən azad olunmasına gəlincə, bu barədə hələ illər öncə Hacı Zeynalabdin Tağıyev fikir bildirib. O söyləmişdi ki, bir kişinin (və ya oğlan uşağının) təhsil alması, sadəcə, bir nəfərin təhsil almasına bərabərdirsə, bir qadının (və ya qız uşağının) təhsil alması bir nəslin təhsil almasına bərabərdir. Qızların təhsil alması bu baxımdan faydalıdır.

Deputatın təklifinə gəlincə, ekspert bildirdi ki, istənilən təklifə baxılmalıdır, incələnməlidir, müsbət tərəfləri götürülməlidir. Bizdə çox təklif olur, amma təklif olaraq da qalır: "Mən də arzu edərdim ki, bu təklif həyata keçirilsin. Bu təklifin səsləndirilməsi elə məsələnin, ən azı, 50 faiz gündəmə gətirilməsidir, insanı düşündürməyə vadar edir. Düşünürəm ki, bu və bu tip digər təkliflərin səsləndirilməsi məsələnin həllində bir stimul, inkişaf rolunu oynamış olar".

N.İsrafilovun sözlərinə görə, Azərbaycanda məhz ödəniş ucbatından minlərlə tələbə ali təhsil ala bilmir: "Buna görə bütün vasitələrdən istifadə etmək lazımdır. Təhsil hamı üçün əlçatan elan edilib, tələbə qəbulunda iki dəfə şans verilir, universitetlərin nəzdində əlavə hazırlıq qrupları yaradılır. Ali təhsillilərin sayına görə dünyanın inkişaf etmiş ölkələri ilə rəqabət aparmağa çalışırıq. Təhsilin əlçatan olması üçün ödənişlərin hər kəsin büdcəsinə uyğun olması barədə düşünmək lazımdır.

Düzdür, bu istiqamətdə Gənclər Fondu tərəfindən müəyyən işlər görülür, ancaq bütün tələbələri əhatə etmir. Ona görə ödənişlər də əlçatan olmalıdır ki, təhsilin tam əlçatan olması kursu, bütövlükdə, həyata keçirilmiş olsun. Qızların orta ixtisas və dövlət ali məktəblərində təhsil haqlarını dövlətin öz üzərinə götürməsi erkən nikah probleminin həllinə də dəstək olar".

***Günel CƏLİLOVA***

# Məcburi köçkünlərə vahid aylıq müavinətin artırılacağı barədə söz-söhbətlərə Komitə reaksiya verdi



**Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Mətbuat xidmətinin məlumatına görə, sosial şəbəkələrdə və bəzi kütləvi informasiya vasitələrində məcburi köçkünlərə dövlət büdcəsindən ödənilən vahid aylıq müavinətin məbləğinin yenidən artırılacağı haqqında məlumat yayılıb.**

Dövlət Komitəsi bununla əlaqədar bildirir ki, ölkə vətəndaşlarının, o cümlədən məcburi köçkünlərin maddi rifahının yüksəldilməsi, sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin sosial siyasətində prioritet istiqamətlərdəndir.

Dövlət başçısı məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında" 26 fevral 2019-cu il tarixli Sərəncam imzalayıb. Sərəncama əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılıb. Həmin vaxtdan etibarən fərdi qaydada sayğacların quraşdırılması və texniki istismarı mümkün olmayan, habelə təbii qazla təmin edilməyən sıx müvəqqəti məskunlaşma yerlərində faktiki yaşayan məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər 33 manat, bu kateqoriyaya aid edilməyən məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər isə 60 manat məbləğində vahid aylıq müavinət alırlar.

Komitə xatırladır ki, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün yemək xərci müavinəti, habelə kommunal və digər xidmətlər üzrə dövlət büdcəsindən ödənişlər əvəzinə vahid aylıq müavinət 1 yanvar 2017-ci ildən tətbiq olunur.

Hazırda Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində vahid aylıq müavinətin məbləğinin yenidən artırılacağına dair məlumat yoxdur.

# Tortla "Allah rəhmət eləsin!" - əcaibləşən adətlərimiz...

**Tort əsasən ad günlərinin, gənclərin nişan və toy mərasiminin və bayramların simvolu hesab edilir. Azərbaycanda biz tortun artıq hüzr mərasimlərinin də simvoluna çevrilməsinin şahidi olmaqdayıq. Artıq bir neçə gündür sosial şəbəkədə üstündə "Allah rəhmət eləsin" yazılmış tort şəkli paylaşılır.**

*"Yas məclisi üçün hazırlanan tort həm insanların gülüşünə səbəb olur, həm də qıcıqlandırır"*

Sosial şəbəkədə yayılan məlumatlara görə, artıq Azərbaycanın bəzi bölgələrində yas mərasimində, xüsusən də mərhumun 40 mərasimində yas sahibinin evinə başsağlığına gələnlər tort və şirniyyat gətirirlər. Bunun da mənası ondan ibarətdir ki, guya bununla hüzr sahibinin evində bundan sonra şadyanalıq olsun.

Bu paylaşım insanların böyük qınağına səbəb olub. Hətta bəziləri bu şəklə "şamı da mərhum üfürəcək", "ölən adamın şirinliyidir?" tipli ironiyalı rəy bildiriblər.

Məlumdur ki, yas mərasimindəki ehsan süfrələrində halva, qoğal, xurma, turşməzə konfet kimi şirniyyat növləri qoyulur. Baxmayaraq ki, bunu da düzgün hesab etməyənlər az deyil. Bəs belə olan halda yas məclisində tort bişirilməsi, üzərinə "Allah rəhmət eləsin" yazılması nə dərəcədə düzgündür?

İlahiyyatçı Cəmşid Əliyev bildirdi ki, yas mərasimlərində süfrəyə hər təamın verilməsi düzgün deyil: "Bu günlərdə sosial şəbəkədə üzərində "Allah rəhmət eləsin" yazılmış tort şəkli paylaşılıb. Bu olay həm insanların gülüşünə səbəb olur, həm də qıcıqlandırır. Məlumdur ki, yas mərasimlərinin özünəməxsus, yüz illərlə formalaşmış qayda-qanunları var. Yas mərasimi kədərin göstəricisidir, yas düşən evdə qədimdə ocaq tüstülənməzdi neçə gün. Əzizi ölənə qonşusu yemək bişirib gətirərmiş. Ancaq indi yas mərasimlərində süfrəyə hər cür təam düzülür. Hüzr məclislərində süfrənin zənginləşdirilməsinin əleyhinə çıxdığımız ərəfədə indi də yas üçün xüsusi tortlar hazırlanır. İnsanlar tort bişirməyə gülüş obyekti kimi səthi yanaşırlarsa, bunu edən adamlar həmin əməldən çəkinsələr, daha yaxşı olar.

**Cəmşid Əliyev:** *"Doğmasını itirən şəxsin evinə əlində tortla gəlməmək düzgün deyil"*




**Danılmaz faktdır ki, tort insanların xoş günləri üçün hazırlanır. Ancaq doğmasını itirən şəxsin evinə əlində tortla gəlmək düzgün deyil. Dinimiz ümumi olaraq deyir ki, insanlar çalışsınlar barmaqla göstəriləcək bir hərəkət etməsinlər ki, kimlərəsə özlərini güldürməsinlər. Bu cür qaydalardan çıxış edərək, insanlar müəyyənləşdirməlidirlər ki, hansı addımı atmaq olar, hansını yox".**

*Günel CƏLİLOVA*

# "XXI Əsrin Qadınları" İctimai Birliyi valideynləri əlil uşaqlarını evdə gizlətməməyə çağırdı



**Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin maliyyə dəstəyi ilə "XXI Əsrin Qadınları" İctimai Birliyi Sağlamlıq imkanları məhdud uşaqlar üçün icma əsaslı sosial reabilitasiya mərkəzinin fəaliyyətinin (Bakı şəhəri) təşkili" adlı layihəsi çərçivəsində fiziki qüsurlu uşaqlara psixoloji xidmət göstərir.**

Layihə çərçivəsində 268 saylı xüsusi məktəbdə fiziki məhdudiyyətli valideyn və uşaqlarla görüş keçirilərək, mərkəz haqqında məlumat verilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rayon şöbələrinə fiziki qüsurlu uşaqların siyahısının (uşaq və valideyinlərin əlaqə nömrələrini, yaşayış ünvanlarını) mərkəzə göndərmələri üçün məktublar ünvanlanıb, mərkəz haqqında məlumat verilib. Fiziki qüsurlu uşaqların siyahısını (uşaq və valideyinlərin əlaqə nömrələrini, yaşayış ünvanlarını) mərkəzə göndərmələri rayon şöbələrindən xahiş olunub.

Bundan əlavə, sosial şəbəkələrdə mərkəzlə bağlı reklamlar yerləşdirilib.

Fiziki qüsurlu uşaqların cəmiyyətə inteqrasiyasını təmin etmək və bacarıqlarının inkişafı üçün valideynləri öz əlil uşaqlarını evdə gizlətməməyə çağırırıq. Bu sahədə maarifləndirmə işinin təşkili üçün hətta ev-ev gəzib, məlumat verməyə hazır olduğumuzu bildiririk.

Əziz valideynlər!

Sizi dövlətin fiziki qüsurlu uşaqlarla göstərdiyi qayğıdan yararlanmaga səsləyirik. Buyurun, mərkəzimizə gəlin! Həftə içi hər gün saat 09:00-dan 18:00-a kimi mərkəzimiz xidmətinizdədir

**Əlaqə telefonları: (+994)50 357 11 74, (+994)77 390 11 12, (+99412) 448-80-88**

# Yazıçılar Birliyində vəziyyətlə bağlı daha bir müzakirə... - Dəyanət Osmanlı

## *"Bəzən gerçəyi deyəndə bunu tərəfkeşlik, yarınmaq, əks halda isə qərəzli tənqid, populizm kimi anlayanlar var"*

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) XIII qurultayının keçirilməsinə cəmi bir neçə ay qalıb. AYB-nin yaydığı məlumata görə, qurultayın keçirilməsi gələn ilin martına planlaşdırılıb. Bəzi məlumatlara görə isə AYB-nin növbəti qurultayının bu ilin noyabr ayında keçirilməsi ehtimalı daha böyükdür.**

Qurultayın vaxtı daraldıqca, AYB və Birlik sədri ilə bağlı mətbuatda müxtəlif qalmaqallı fikirlər yayılır, qurum sədri vəzifəsinə namizəd kimi müxtəlif şəxslərin adları çəkilir. Məlumatlara görə, qurultay öncəsi artıq AYB-nin daxilində və xaricində müxtəlif qruplaşmalar mövcuddur və onların bütün güclərini Anarın Birlik sədri seçilməməsi üçün səfərbər etdikləri bildirilir.

AYB-dəki vəziyyəti bu dəfə tanınmış şair-publisist, Azərbaycanda Atatürk Mərkəzinin baş redaktoru, AYB üzvü Dəyanət Osmanlı ilə birgə müzakirə etdik.

**- Dəyanət bəy, qarşıdan Azərbaycan Yazıçılar Birliyinin 13-cü qurultayı gəlir. Başqa ictimai qurumlardan fərqli olaraq, AYB də hər zaman qurultay öncəsi ajiotaj yaşanır. AYB-nin bu dərəcədə maraq kəsb etməsi nə ilə bağlıdır?**

- Düzdür, AYB bir ictimai qurumdur, ancaq eyni zamanda, ictimai rəyə təsir göstərən bir adlı-sanlı qurumdur. Bu birliyin bir çox üzvü var ki, həmişə ədəbi-mədəni, elmi, eləcə də ictimai aktuallıq daşıyan sferalarda fəal vətənçi, dövlətçi mövqeləri ilə seçilirlər. Ona görə də AYB-nin nüfuzu və statusu digər qurumlarla müqayisədə üstündür. Yazıçı bir fərd kimi də, yaradıcı şəxs kimi də xalqın, dövlətin marağı ilə tən olmalıdır. Həm də bu, belə də olmalıdır.

Azərbaycanda ədəbiyyata həmişə dövlət səviyyəsində yüksək qayğı olub. Başqa ölkələrdə bu münasibət ya yoxdur, ya da heç bizdəki səviyyəyə yaxınlaşa bilməz. Yaradıcı insanların sosial problemlərinə diqət göstərilir. Cənab Prezident İlham Əliyevin yaradıcı insanlarla builki görüşü çox qiymətli hadisədir. Dövlət başçısının böyük səmimiyyəti ilə keçən görüşdə Xalq yazıçısı Anar tərəfindən qaldırılan təkliflərin hamısı gerçəkdən aktual ehtiyacları ifadə edir. Eyni zamanda, Prezidentin böyük xeyirxahlığı sayəsində yazıçılar üçün yaşayış binasının tikintisinə torpaq sahəsi ayrıldı. Yazıçılar Birliyinə 850 min manat vəsait verildi. Yaradıcılıq evlərində bərpa-tikinti işlərinin aparılması məsələsi qərara alındı. Dövlətin ədəbiyyat siyasəti böyük humanizm, ədəbi-mədəni irsə sahiblik prinsiplərinə söykənir.

**- Ədəbi mühitdə baş verən canlanmanı necə qiymətləndirmək olar?**

- Ədəbi mühitdə canlanma həmişə olub və olması yaxşı haldır. Amma gəlin görək bu, ədəbiyyat naminə canlanmadırmı, yoxsa imtiyazlar uğrunda canfəşanlıqdırmı... Çoxlarının isə könlündən ədəbiyyata xidmət yox, ədəbiyyatı idarə etmək keçir. Gənclik dinamikadır. Şübhəsiz, gəncliyə imkanlar yaratmaq lazımdır ki, özünü göstərə bilsin. Ancaq bunu kütləvi şəkildə etmək mümkün deyil, həm də bir təşkilat çərçivəsində. Eyni zamanda, istedadından, haqlı və haqsızlığından asılı olmayaraq, ədəbi cameədə gərginlik axtaran və bunun üçün səy göstərən adamlar var. Sizin bayaq toxunduğunuz ajiotajın və ondan da mürəkkəb situasiyanın AYB-də baş verməsini istəyən qruplar var. Onlar üçün fərq etməz, yaxşıya, ya pisə, təki dəyişiklik olsun.

**- Keçən qurultaydan əvvəl deyilirdi ki, "Anar getməlidir, o getsə AYB xilas olacaq". Lakin yazıçı və şairlər yenidən Anara etimad göstərib onu birlik sədri seçdilər. Bəzi qüvvələrin Anara qarşı apardığı kampaniya nəyə xidmət edir?**

- Təkcə qurultay ərəfəsində yox, adi vaxtlarda belə bu fikirlər maraq güdən yazarlar tərəfindən ortaya atılır. Onların nə istədikləri bəzən özlərinə də aydın olmur. Mən razıyam, hər hansı vəzifə daimi deyil və heç kimin adına yazılmayıb. Kiminsə işləmək imkanı məhdudlaşıbsa, o öz yerini təyin etməlidir.

Bəzən gerçəyi deyəndə bunu tərəfkeşlik, yarınmaq, əks halda isə qərəzli tənqid, populizm kimi anlayanlar var. Gerçəyi deyəndə mən bu kimi iradlara qəti fikir vermirəm. Anar təkcə böyük yazıçı deyil, həm də böyük patriotdur. Keçən əsrin 90-cı illərində və elə ondan öncə də SSRİ-nin ən yüksək tribunasından xalqa qarşı törədilən cinayətləri, haqsızlıqları çəkinmədən pisləyib. Onda o, kimi düşünürdü? Əlbəttə, özünü yox, millətini. Bundan başqa, o, AYB-nin rəhbərliyinə ən çətin zamanlarda, özü də yazıb-yaradıb dünya miqyasında tanınandan sonra gəlib və bundan da mürəkkəb vəziyyətlərdə qurumu məhv olmağa qoymayıb. Bunlar ki, gözümüzün qabağında baş verib. Hamı çəkilib gedəndə o, qalıb, AYB-nin, ədəbiyyatın və yazıçıların taleyini düşünüb. Eləcə də bu gün Yazıçılar Birliyi ilə bağlı görülən müsbət tədbirlər bir şəxs üçün deyil, bütövlükdə, ədəbiyyat, yazıçılar üçündür.



*"Hətta ictimai rəydə Anarın əleyhinə səngiməyən kampaniyalar da AYB-də yeri möhkəmlənmiş qrup başçıları tərəfindən planlanır və həyata keçirilir"*

Onun əleyhinə gedənlərin, demək olar ki, hamısını AYB-yə Anar qəbul edib. Məqsədli gəliblər, müəyyən dividendlər qazanmaq, məşhurlaşmaq istəyiblər. Bunlar olmayanda, Anarı təhqir ediblər. Azərbaycanda və bəlkə də dünyada Anar qədər haqsız təhqirə, qərəzə məruz qalan ikinci bir yazıçı yoxdur. Onun yerinə başqa adam olsaydı, günü qalmaqallı məhkəmələrdə keçərdi. Anarın böyüklüyü məhz müdrikliyində, rəhmli olmağındadır. Həm də yazıçı-sədr Anarın müdrikliyi ondadır ki, hətta onu təhqir edib AYB-dən gedənlərin ardınca qapını bağlamayıb, səhvini anlayıb qayıdanda da onlara əl uzadıb. Sədrin qapısı həmişə hər kəsə və maraqlı təşəbbüslərə açıq olub. Milləti ni sevən insan da milləti üçün bu qədər zəngin irs yaradan bir mütəfəkkirin dəyərini bilməzmi? Yəni anlaşılmazlıq bax bunda, - insanın düşüncəsində, özünə münasibətindədir.

Açıq deyim, o "xilaskar"ların əksəriyyətinin də yazdıqlarının heç bir ədəbi dəyəri yoxdur. Mən başa düşmürəm, nəyi xilas etmək lazımdır? O adamlar öz içlərində vicdanlarıyla və bir-birilə gizlin intriqadadırlar. Hələ sən bir yaxşı əsər yaz, cəmiyyətin, dövlətin üst dəyərlərinə, alt yapılarına cavab versin. İddaların da gerçəyi yansıtsın. İntriqaçı nəyisə, tutaq ki, Yazıçılar Birliyini idarə edə bilərmi?! Əksinə, orada elə xaos yaradar ki, özü də içində boğular. Elə onda onun özünü xilas etməyə ehtiyac yaranar. Həm də AYB idarəçiliyi belələrinə tapşırılsa, qurum özünü doğrultmayan adi, mənasız qeyri-hökumət təşkilatı səviyyəsinə düşər.

**- Bu gun AYB əleyhinə xüsusi qruplaşmalar yaradıldığı haqqında məlumatlar dolaşır. Onların məqsədi nədir, Anarı devirmək, yoxsa "ədəbiyyatı ağ günə çıxarmaq"dır? Bəziləri niyə yaradıcılıqla məşğul olmaq əvəzinə, AYB-yə daş atmaqla məşğul olur?**

- Vaxtilə AYB-ni ən çox tənqid edənlərdən biri mən olmuşam. Lakin tənqidi fərdi keyfiyyətlər üzərində qurmamışam. İşə, idarəçiliyə münasibətimi qərəzə, təhqirə yol vermədən bildirmişəm. Düzdür, AYB-də islahatlar aparılmalıdır. Mən həmişə bunu demişəm. Gənclərə, xüsusən də istedadlı gənclərə imkan yaradılmalıdır. Bəzi hallarda yaradılır da. Təəssüf ki, istedadsız sui-istifadəçilər bu imkandan daha çox faydalana bilir. Bu da var ki, hamı özünü istedadlı sayır. Elə bir istedad meyarı yoxdur ki, ölçəsən. Amma daha haminin tələbini, istəyini təmin etmək də mümkün deyil.

Son illər ədəbiyyata sosial şəbəkələrdən gəlirlər. Çap olunmaq imkanı da kifayət qədərdir. Kim nə yazır, eləcə də çap olunmaq istəyir və olunur. Bəzən heç özləri də yazdıqlarını oxumurlar. Ədəbiyyata kütləvi axın getdikcə dərinləşən və amansızlaşan gizli ədavətçi qruplara sərf edir. Hətta ictimai rəydə Anarın əleyhinə səngiməyən kampaniyalar da AYB-də yeri möhkəmlənmiş qrup başçıları tərəfindən planlanır və həyata keçirilir. Sonra bu zirək yazarlar təqaüd, vəzifə, mükafat istəyir və alırlar da...

Ortada bir əməlli yazı-pozusu olmayan, özü kimilərdən dəstə yaradıb haqq eləmədiyi vəzifə, yardım, mükafat alanlarım kiçikçaplı oyunları da göz qabağındadır. Buyur, bir irad bildir, üstünə tökülüşəcəklər.

AYB-də qruplaşmalar həmişə olub. Hesab edin, hər kəsin əlində də qələm var. Amma həqiqi ədəbiyyat və ədəbiyyatçılar bundan mənəvi travma alıb. Qruplaşmalara qoşulan gənclərə tövsiyəm budur: yazıb-yaratmaq haqqında düşünün, sənəti siyasətə dönüşdürməyə çalışan "ədəbiyyatçı-siyasətçi-millətçi" vampirlərə vaxtınızı, istedadınızı, haqqınızı yedirtməyin. Kiminsə marağına vasitə olmayın. Və lütfən, vasitəyə çevrilməyin ki, yaradıcılıq potensialınızı və şəxsi özəlliklərinizi qoruyub saxlaya və enerjinizlə ədəbiyyata, millətə fayda verə biləsiniz...

**- Qurultaydan gözləntiləriniz? Yeni sədr haqda danışmaq olarmı? Çünki AYB sədri postunu tutmağa iddialı olanlar var...**

- İddialar, arzular olmalıdır və normal haldır. İddiası olmayan adamın, deməli, özündə bir problem var. Bunsuz inkişaf da olmaz. Amma iddia mütləq haqqa əsaslanmalıdır. Belə düşünürəm ki, növbəti qurultay AYB-nə yeniliklərlə müşayiət olunan islahatlar gətirəcək. Bu proses mütləq olmalıdır. İslahatlar birliyin aparatında, ədəbi orqanların strukturunda, eləcə də AYB üzvləri arasında, üzvlük məsələsində və s. getməlidir. Təsadüfilər də coxdur, ədəbiyyata bir cümlə fayda verməyiblər. Amma istəkləri başdan aşır, elə hey tələb edirlər...

AYB sədri postuna gəlincə, düşünürəm ki, quruma elə Anar kimi bir mütəfəkkir yazıçı, yüksək idarəçilik təcrübəsi olan vətənpərvər ziyalı başçılıq etməlidir. Anar Yazıçılar Birliyini özünün dünyada tanınan nüfuzu səviyyəsinə qaldırıb. Bu işdə ona uğurlar diləyirəm.

*İradə SARIYEVA*

# Aşura günü ziyarətgahlara gətirilən əşya və ərzaqların sonrakı taleyi...

**Hacı Təyyar Hüseynli:** *"...Qafqaz Müsəlmanları İdarəsi və Dini Komitə bunun qarşısını alar"*

**Məlum olduğu kimi, sentyabrın 10-da ölkəmizdə Aşura mərasimi keçirildi. Əsasən ölkənin şiə kəsiminin iştirakı ilə məscidlərdə keçirilən Aşura mərasimlərinə qatılan şəxslərin, demək olar ki, böyük əksəriyyəti məscidlərə müxtəlif formalarda ianələr verdilər. Məscidlərə, ziyarətgahlara geyimlər, baş örtükləri, müxtəlif növ şirniyyatlar, xörəklər nəzir olaraq gətirildi.**

Bundan başqa, ələmə də yaylıqlar, başqa geyim əşyaları bağlandı. İnanclara görə, insanlar arzularının çin olması üçün Aşura günü ələmə yaylıq, pul, başqa dəyərli əşyalar bağlayırlar. Əsrlərdir davam edən bu ənənə, əslində, bir ianəçilik dəst-xəttini formalaşdırmalıdır.

Əvvəlki on illiklərdə Aşura günü məscidlərə yığılan nəzir-niyaz, ələmə bağlanan baş örtükləri, şallar, pul əhalinin kasıb, əlsiz-ayaqsız təbəqəsinə verilirdi. Nəzərə alsaq ki, Sovet dövrü ilə müqayisədə bu gün Aşura günündə məscidlərə, ziyarətgahlara daha çox insan gedir və onların verdikləri ianənin, nəzirin də həcmi daha böyükdür, bunun müqabilində daha çox ac qarın doyurulmalı, daha çox çılpaq əyin geyindirilməlidir. Aşurada yığılan nəzir-niyazın birbaşa kasıb insanlara, yetim və əlsiz-ayaqsızlara verilməsi daha məqbul və savabdır.

Cəmiyyətdə yayılan söz-söhbətlərə görə, ölkəmizdə hər il kütlələrin iştirakı ilə keçirilən Aşura mərasimlərində nəzir kimi məscidlərə gətirilən geyimlər, baş örtükləri, qida məhsulları əlsiz-ayaqsızlara, kasıb-kusuba, yetimyesirə çatmır, hətta onların çox hissəsi bazarlarda satılır. Cəmiyyətdə yayılan xəbərlərə görə, ehsan, nəzir şəklində verilən geyimlərin, əşyaların bazarlarda satılması halları müşahidə edilir. Halbuki, məscidlər bu geyimləri ehtiyacı olanlara verməlidirlər. Çünki dinimizin tələblərinə görə, hər bir mömin müsəlmanın əsas vəzifəsi ehtiyacı olan din qardaşlarına dayaq olmaqdır. Lakin bizdə bu tendensiya elə də geniş yayılmayıb. Aşura günü məscidlərə gətirilən ehsanların birbaşa kasıb ailələrə çatdırılması daha məqbuldur.

Onu da bildirək ki, bəzi məscidlər Aşura günü gətirilən nəzirlərin uşaq və qocalar evlərinə aparıldığını desələr də, həqiqət tamam başqa bir şeyi diqtə edir. Doğrudur, Aşura günündə qocalar və uşaq evlərinə ehsanlar gedir, lakin ora bu ehsanlar sadə vətəndaşlar tərəfindən aparılır.

Son illər Aşura mərasimlərində məscidlərə və ziyarətgahlara gətirilən ehsanların, nəzirin, pulun sonrakı taleyi daha çox müzakirə edilir.



*"Ola bilər ki, məscidlərdə bu istiqamətdə neqativ və qeyri-şəffaf işlər də baş versin"*

Tanınmış ilahiyyatçı Hacı Təyyar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, Aşura günü də daxil olmaqla, xalqımızın bütün hüznlü günlərində cəmiyyətimiz əlindən, əməlindən qopan maddi və mənəvi dəstək göstərir. O qeyd etdi ki, hüzn məclislərində edilən yardımlaşma çox şəffafdır və bunun üçün xüsusi bir qeydiyyat dəftəri olur, kimin nə gətirdiyi ora yazılır. "Mən özüm bir ilahiyyatçı kimi bütün bölgələrdə yas məclislərində olmuşam və orada yardımlaşma çox şəffaf şəkildə həyata keçirilir. Aşura mərasimlərinə gəlincə, bura insanlar çay-qənd, şal, bir sözlə, evində məscid üçün nəzərdə tutduğu nə varsa onu gətirirlər. Yaxud da evindən məscidə müxtəlif xörəklər, bişmişlər gətirirlər. Evdən gətirdikləri bişmiş qidaları, eləcə də ət, qənd, çay və digər məhsulları məsciddəcə insanlar özləri paylayırlar. Eləcə də kim sədəqə vermək istəyirsə, məscidə gəlir. Bu gün sədəqənin də adət halına çevrilmiş bir qaraçı dilənməsi varsa, bu, məsciddə də baş verir. Yəni qaraçılar, dilənçilər Aşura günü məscidlərə gəlib sədəqə yığırlar. Sizin toxunduğunuz məsələyə gəlincə, mən özüm 10 il İmam Əli Məscidinin axundu olmuşam. Elə adamlar vardı ki, onlar gətirdikləri nəzir-niyazın ədalətlə paylanmasını məscidlərə, burada işləyənlərə həvalə edirdilər. Mən çox ədalətli bir insanam, bu mənim həyat kredomdur. İşçilərə tapşırırdım ki, bura gətirilən nə varsa, hamısı ədalətlə bölünsün və ehtiyacı olan adamlara çatdırılsın. Həmin ehsanları, nəzir-niyazları il boyu məscidə müraciət edən, yaxud özümüzün tanıyıb bildiyimiz ehtiyacı olan insanların ünvanlarına yönəldirdik. Ola bilsin, məscidə gələn çaydan, qənddən məscid işçiləri də istifadə etsin, bu normal haldır. Lakin məscidə gələn nəzir-niyazları, şirniyyatı və s. "bu mənimdir, məscidə gəlib" deyə qamarlamaq, mənimsəmək tamamilə məntiqsizdir, yolverilməzdir. Bu tamamilə qeyri-şəffaf, Allahdan, dindən uzaq bir məsələdir. Qaldı nəzir qutularına, Aşura günü məscidlərə daha çox insan gəlir və nəzir qutusuna qulpundan çıxan pulu atır. Elə adam var 20-30 qəpik, elə adam da var ki, yüz manat atır. Həmin gün yüzlərlə insanın məscidə gəlməsi nəticəsində nəzir qutularına atılan pullar üst-üstə yığılanda çox böyük məbləğ edir. Aşura günü məscidlərin nəzir qutusuna daxil olan böyük məbləğ də məscidlərin rəhbərləri tərəfindən protokollaşdırılmalıdır. Bundan sona Aşura günündən əldə olunmuş ianə məscidin xüsusi ehtiyaclarına, xüsusən də məscidin yaşamasına, fəaliyyətini davam etdirməsinə, kommunal xərclərinə, cari təmiri ilə bağlı ehtiyaclarına, ehtiyaclı tikinti istiqamətlərinə, məscidin işçi heyətinə məsrəf olunmalıdır. Çünki bu pul məscidə gətirilib. Lakin burada məsələni şəxsiləşdirmək olmaz. Çünki o ümumxalq puludur" - deyə bildirən H.T.Hüseynlinin sözlərinə görə, məscidlərə gələn şalların, geyim əşyalarının bazarlarda satılması ilə bağlı məsələ şişirtmədir. "Bilirsiniz, məscidlərə gələn əşyaların, şalların və s. bazarlarda satılması ilə bağlı məlumatlar qəsdən, özü də şişirdilmiş şəkildə gündəmə gətirilir. Məscidə nə qədər geyim, şal gəlir ki, onu da götürüb bazarda satsınlar? Mən şalın, digər əşyaların satılmasını absurd hesab edirəm. Ola bilsin, kimlərsə bu söz-söhbəti yayır. Bilirsiniz, bu gün şəhərlərdə, rayon və kəndlərdə nəzir qutularına müəyyən qədər ictimai nəzarət də var. Yəni heç kəs açıq-açığına xalqın pulunu mənimsəyə bilməz.

Məscidlərə gələn müəyyən əşyaların bazara çıxarılıb satılması ilə bağlı şayiələrin yayılmasının səbəbinə gəlincə, bu, bəzi şəxsi konfliktlərlə əlaqədar ola bilər. Elə insanlar var ki, onların hansısa məscidin imamı, axundu ilə müəyyən problemi olur və buna görə də bu cür həqiqətə uyğun olmayan söz-söhbətləri cəmiyyətə sızdırır. Məscidlərdə bu qədər özbaşınalıq baş verərsə, istənilən halda, Qafqaz Müsəlmanları İdarəsi və Dini Komitə bunun qarşısını alar.

Ola bilər ki, məscidlərdə bu istiqamətdə neqativ və qeyri-şəffaf işlər də baş versin. Neqativ hal da istənilən strukturda, istənilən sahədə ola bilər. Aşura mərasimləri zamanı insanlar tərəfindən İmam Hüseyn əleyhisalam, Kərbəla şəhidləri, müqəddəs dinimiz adına məscidlərə gətirilən ianələr, nəzir-niyazlar məscidlərin rəhbərləri tərəfindən ədalətlə bölünməli, ehtiyacı olanlara ünvanlanmalıdır. Bu sahədə hər hansı bir qeyri-şəffaflıq müşahidə olunarsa, əlaqədar qurumlar bunun qarşısını almalıdırlar" - müsahibimiz qeyd etdi.

***İradə SARIYEVA***

№ 161 (4059) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

12 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# Yer üzündәki әn qәdim xalq...

**Yer üzündәki әn qәdim xalq müәyyәnlәşdirilib. "Ölkә.az" bildirir ki, bu, etnik qrupla müqayisәdә bütün qәdim yunanlar, çinlilәr, farslar vә misirli digәr şumerlәr, demәk olar ki, dünәn peyda olublar.**



Bu insanlar imperiyalar yaratmayıblar, heç bir şey iddia etmәyiblәr. Özlәrini vә dillәrini qoruyaraq, sadәcә yaşayıblar vә yaşamağa davam edirlәr. San vә Koy, Buşmen vә hottentotlar kimi tanınan, ayrı-ayrı koysan irqi tәşkil vә ayrı-ayrı koysan ailә dillәrindә danışan bu irq haqqında 100 min il bundan әvvәl (vә bәzi mәlumatlara görә, bütövlükdә200) ümumdünya ağacından ayrılır. Heç bir irq olmadığı zaman bәşәriyyәtdә yeganә qәbilә kimi mövcud idilәr. Burada xüsusi olaraq Buşmen (san) haqqında danışırıq, çünki, Hottentotlar (koy) biraz sonra onlardan ayrılıb. Birincilәri isә Buşmenlәr olub. Antropoloji vә genetik xüsusiyyәtlәr Artıq Buşmenlәrin yarışlarına dair fikir birliyi var. Ayrı bir irqә aiddirlәr. Bu budağın kiçik bir irq vә negroidin alt qrupu (capoid kiçik irqi) vә ya ayrı bir irqi (hoysan irqi) olub-olmadığı barәdә mübahisә edәn yeganә şey, xüsusәn fәrqlәr çılpaq gözlә göründüyü üçün bu da çox әhәmiyyәtli bir nöqtә deyil. Buşmen (vә Hottentotlar) daha yüngül bir dәri rәngi, bәzi monqoloid xüsusiyyәtlәri vә qadınlarda hip birgә vә cinsiyyәt orqanlarına xas quruluşu ilә fәrqlәnir. Yaxşı, kiçik böyümә - orta hesabla 150 sm. Daha da heyrәtlisi onların genetikasıdır. Əsrin әvvәllәrindә Hoysan xalqlarının vә xüsusәn dә Buşmenlәrin geniş miqyaslı DNT tәdqiqatları aparılıb. Nәticәlәr tәәccüblüdür. Əvvәla, bu çox böyük bir genetik müxtәliflikdir - iki Buşmen bir-birindәn Qafqaz vә Monqoloid irqlәrinin nümayәndәlәrindәn daha çox fәrqlәnir vә digәr irq vә qrupların insanları ilә işlәyәrkәn bu günә qәdәr 1,3 milyon genetik xüsusiyyәtә rast gәlinmәyib. Buşmenlәrin orijinal universal insan genomu ilә әn çox qarşılaşması var. Haplog qruplarının pәrәstişkarları üçün deyә bilәrik ki, Buşmenlәr A0-1-2-3 haplogrupunun daşıyıcılarıdır, yәni B-dәn R-ә qәdәr olan vә digәr kәnar haplogrupların mutasiyalar nәticәsindә meydana gәldiklәri. "Y-xromosom Adәm" adlanan sözә әn yaxındırlar. Burada görә bilәrik ki, Hoysan bölgüsü tәxminәn 200-300 min il әvvәlә tәsadüf edilir. Ancaq irqi vә genetik kimliyi etnik qrup haqqında bir şey söylәmir. Bu hәlә daha çox sosial-mәdәni vә dil fenomenidir. Bәs xalq olubmu? Bunun olduğunu iddia etmәyә cәsarәt etdik. Ancaq tәdqiqatçıların әksәriyyәti belә düşünür. Əvvәla, dillәr buna sübutdur. Buşmen tamamilә unikal olan bir Hoysan dilindә danışır. Bәli, çoxları çox sayda unikal tıklama sәslәrinin eşidildiyi "tıklayan dillәr" haqqında eşitmişdilәr. Belәliklә, bunlar Hoysan dillәridir vә müstәqil lәhcәlәrdәn daha çox bir dilin dialektlәridir. Bundan әlavә, on, hәtta yüz minlәrlә il boyunca vahid bir maddi mәdәniyyәt vә tәkcә maddi deyil - Kalahari çölündәki qaya rәsmlәri üslubu birdir vә müvәqqәti fәrqlәr göstәrmir. "Beşinci nöqtә" nin çıxışı açıq şәkildә göstәrir ki, bunlar Hoysan irqinin nümayәndәlәridir. Ən başlıcası, Buşmenlәrin özlәri birliyini dәqiq bilirlәr, baxmayaraq ki, bir-birlәrinә zidd ola bilәrlәr. Yәni, bir etnik qrupun varlığını göstәrәn bir dil, mәdәni vә zehni birliyin olduğu ifadә edilә bilәr. Vә әgәr bu antropoloji vә genetik birliklә birlәşsә (tәsadüfәn nadirdir), onda heç şübhә yoxdur. Buşmenlәrin ayrı bir xalq olaraq tәxminәn 100 min il әvvәl (vә ya daha da çox) meydana çıxdığı vә bu günә qәdәr davam etdiyini iddia etmәk olar. Bunlar hәqiqәtәn planetimizdәki әn qәdim insanlardır. Yeri gәlmişkәn, bu, ümumiyyәtlә dәrin biliklәrә, müasir danışan, praktik kimya vә farmakologiyada (bәzәn hәtta hәkimlәr kömәyә müraciәt edir), çox gözәl vә dәrin mif vә әfsanәlәrә sahib heyrәtamiz insanlardır.

Onların tәbiәtlә necә birlәşib başa düşdüklәri ümumiyyәtlә ayrı bir musiqidir. Ancaq bu fәrqli vә mürәkkәb bir mövzudur.

**Elan**

Şәki rayonu, Aşağı Şabalıd kәnd sakini Ramazanov Ramazan Yunus oğlunun adına verilmiş JN: 136 saylı torpağa mülkiyyәt hüququna dair dövlәt aktı itdiyi üçün etibarsız sayılır.

Mәmmәdli Əlisa Hikmәt oğluna mәxsus VAZ 21-063 markalı avtomobilin 10ES421 ön nömrәsi itdiyi üçün etibarsız sayılır.

Mәmmәdova Sәbinә Rais qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır (AZE - 16553480 Asan 4).

Qafarova Rәsmiyyә Yadulla qızının adına, Abşeron rayonu, Fatmayı kәndindә yerlәşәn torpaq sahәsinin CN-142 "A" kod 30803018 torpağın mülkiyyәtә verilmәsinә dair şәhadәtnamәsi itdiyi üçün etibarsız sayılır.

## TƏBRİK!



Zeynәbi Zәhradır bu
Adı müqәddәs, әziz.
Özü bәnzәr günәşә,
Arzusu sonsuz dәniz.

Ruhu mәlәk tәki saf,
Özü bir sevinc payı.
Anasının arzusu,
Atanın günü, ayı.

Zeynәbi Zәhradır bu
Günün, ayın zәrrәsi...
Daim işıqlı olsun
Ağılı, dәrrәkәsi

Bu gün Zeynәbi Zәhra balanın ad günüdür. Zeynәbi Zәhranı 8 yaşı tamam olması münasibәtilә atası Faiq, anası Samirә, qardaşı Fәrid, bacısı Arzu, babası Cәlal, nәnәsi Nәhayәt, dayıları Samir, Seymur, Əlәkbәr, әmisi Sәrdar, Arif, xalaları Sәrgül, Samidә, Günәş, Ayşәn vә Leyla da tәbrik edir, ona cansağlığı, uzun ömür, sәadәt dolu illәr arzu edirlәr.
Əziz balamız, doğum günün mübarәk. Allah sәni bәxtәvәr elәsin!
Bu tәbrikә Cәlilovlar ailәsi dә qoşulur.





**Qoç** - Çoxdan hazırladığınız planları reallaşdırmağa başlayın. İnsanların gur olduğu yerlәrә yollanmayın. Qәtiyyәtli olun, qarşınıza qoyduğunuz mәqsәdә çatmaq üçün bütün vasitәlәrdәn istifadә edin.



**Buğa** - Daha rahat, komfortlu, әlverişli şәraitdә çalışmağa can atmayın. Mәrhәlәlәri tәdricәn qәt edin. Tәnbәllik etmәyin, passivliyә qapılmayın. İzafi diqqәt, fәrdi ambisiyaların tәminatı zәrәr verәcәk.



**Əkizlәr** - Pozitiv, yaxşı gündür. Hisslәrә qapılmayın, emosiyaların әsiri olmayın. Kәdәr, şübhә, qısqanclıq, bezdirici xatirәlәr işgüzar fәaliyyәtә manelәr yaradacaq. Yeni anlaşma vә ya sifarişlә bağlı müzakirәlәri qeyri-formal şәraitdә aparmaq olar.



**Xәrçәng** - Sәxavәtli olun. Qarşıya qoyulmuş mәqsәdә çatmaq üçün yaxınların vә inandığınız insanların yardımlarından faydalana bilәrsiniz. Münasibәtlәrdә sәmimi olmağa çalışın. Saxtakar, yalançı, kütbeyin insanlardan uzaq durun.



**Şir** - Günün fonu sizә hәtta әn parlaq fonda itib-batmamağa imkan verәcәk. Aldığınız tәkliflәrin şirniklәndirici effektinә aldanmayın. Yaşanan proseslәrin zahiri görüntülәri әvәzinә mәzmununu qiymәtlәndirin.



**Qız** - Kütlәdәn seçilәrәk müstәqil fәaliyyәt göstәrә bilsәniz, yaxşı nәticәlәrә nail olacaqsınız. Bilik, bacarıq vә tәcrübәnizdәn yararlanın. Qәtiyyәtli olun. Kiçik manelәr vә ya cüzi problemlәr sizi ruhdan salmamalıdır.



**Tәrәzi** - Oyun qaydalarına vә fәaliyyәtdә әnәnәvi metodikaya riayәt etsәniz, pis gün deyil. Kreativ olun, sәrhәdlәri genişlәndirin. Köhnәlmiş şablonlardan vә mәnasız rituallardan qurtulun.



**Əqrәb** - Yeni tәşәbbüslәrdә tәlәskәnliyә yol vermәyin. Aramla çalışın, amma astagәl olmayın. Yaşamın diqtә etdiyi şәrtlәri qulaqardına vurmayın. Dәvәtlәrdәn imtina etmәyin. Tәәssüratları artıraraq tәcrübәnizi zәnginlәşdirin.



**Oxatan** - Günün ilk yarısı uğurlu olacaq. Əhvalınızı korlamayın, ruhdan düşmәyin. Mәqsәdә çatmaq üçün nikbin olun. İmicinizin qeydinә qalın. Rәqiblәrin mövqelәrindәki zәif mәqamları aşkarlayın.



**Oğlaq** - Yaşamınızdakı harmoniyanı kobud şәkildә pozmayın. Proseslәrin zahiri tәrәflәri vә atributları sizi aldatmasın. Uğur, sadәcә, istәklә olmur. Hadisәlәrә tәsir imkanlarına malik insanlarla sıx ünsiyyәt qurun.



**Dolça** - Süst vә tәnbәl olmayın. Yaxın dostlara yardım edin, onlara dәstәk olun. Çoxdankı rәqiblәrin mövqelәrini zәiflәtmәk üçün hücuma keçin. Çoxdankı rәqiblәrdәn biri tәrәfdaşlıq tәklif edirsә, dәrhal "yox" demәyin.



**Balıqlar** - Əlverişli, yaxşı gündür. Baş verәcәk hadisәlәrdәn faydalanaraq nәzәrdә tutduğunuz istiqamәtdә hәrәkәt edin. Ümumi plan çәrçivәsindәn kәnara çıxmayın. Yaxın әtrafınızdakı insanların istәklәrini nәzәrә alın.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## Elmә mәlum olmayan canlılar tapıldı

**Toronto Universitetinin alimlәri Kanadada Kiddın mәdәninin sularında yaşayan birhüceyrәli mikroorqanizmlәri aşkar ediblәr.**

"Ölkә.az" bildirir ki, onlar suyun әtraf cinslәrlә qarşılıqlı tәsirindәn yaranan kimyәvi maddәlәrin udulması ilә yaşayırlar. Kәşf hәyatın yer üzündә necә meydana gәldiyini vә digәr planetlәrdә şәrtlәrә tab gәtirә bilәcәyini öyrәnmәyә kömәk edәcәkdir. Bu barәdә "The Independent" nәşri mәlumat verib. Tәdqiqatçılar piritin (dәmir disulfidinin) günәş işığı vә oksigen olmadığı tәqdirdә orqanizmlәrin hәyat fәaliyyәtini dәstәklәyә bilәcәyini tapıblar. Bu, bakteriyaların tәcrid olunmuş yeraltı ehtiyat qatlarında yaşaya bilәcәyini bildirir. Mәlumdur ki, Yer sәthinin dәrinliklәrindә birhüceyrәli canlılar yaşayır. Yeraltı mikroorqanizmlәr üçün mövcud olan enerji miqdarının az olması sәbәbindәn onların maddәlәr mübadilәsi çox yavaşdı. Nәticәdә, onlar minlәrlә ildir heç bir dәyişiklik etmәdәn yaşaya bilirlәr. Alimlәr açıq mikroblar vә digәr yeraltı birhüceyrәli mikroblar arasında qohumluq әlaqәlәrinin olub-olmadığını müәyyәn etmәk üçün DNT analizini aparacaqlar.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.